*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*
*("Maidə" surəsi, 9-cu ayə).*

# İMAN

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

Oktyabr 2012 (Zil-qədə 1433) 06 (74)



# Qəlblərimiz səninlə döyünür, YA RƏSULALLAH (S)!



**Ya Rəsulallah (s)! Allah səni aləmlərə rəhmət olaraq göndərdi. Sənə həsrət könüllər, hər zaman sevginlə alışıb-yanmaqdadır. Sənin o nur üzünü görmək, sənin sevgi gəminin yolçusu olmaq, sənin şəfaətinə qovuşmaq arzusu ilə yaşadı hər an bu ümmətin.**

*Ya Rəsulallah (s)! Allah səni aləmlərə rəhmət olaraq göndərdi. Sənə həsrət könüllər, hər zaman sevginlə alışıb-yanmaqdadır. Sənin o nur üzünü görmək, sənin sevgi gəminin yolçusu olmaq, sənin şəfaətinə qovuşmaq arzusu ilə yaşadı hər an bu ümmətin. Sən ki, "kişi sevdiyi ilə bərabərdir" buyurmuşdun. Bu gündə də və hər an, səni sevən milyonlarla insanlar, möminlər, möminələr səninlədirlər. Qəlblərimiz səninlə döyünür. Səni canlarımızdan da çox sevirik, ey sevgililər sevgilisi olan Peyğəmbərimiz (s)!*

*Düşmənlər yenə də səni təhqir etdilər. Dünyada yaşayan insanlar, sənə olan hörmətlərini, sevgilərini bildirmək, insanlığa bəxş etdiyin islami dəyərləri qorumaq üçün səslərini ucaldaraq, bu rəzilliyə, alçaqlığa etirazlarını bildirdilər. Səni tanıyan hər bir kəs bacardığı kimi, bu haqsızlığa, ədalətsizliyə "dur" dedi.*

*Zamanımızda bəzi dini, irqi, mənsubiyyəti məlum olmayan insanlar, dini bir alətə çevirərək dünyada fitnə toxumu əkmək üçün öz məqsədlərini açıq-aşkar ortaya qoydular.*

*Onlar səni təhqir etməklə, təkcə müsəlmanları deyil, bütün dinlərin peyğəmbərlərini, bu dinlərə əməl edən insanların inanclarını, varlıqlarını, kimliklərini təhqir etdilər.*

*Ey Peyğəmbərimiz (s)! Kaş ki, bu təqdirləri, bu alçaqlıqları tarixin yaddaşından silə biləydik.*

*Bu gün biz sənin ümmətin olaraq, bir müsəlman olaraq öz etirazımızı bildiririk. Və bütün dinlərin nümayəndələrini bu təhqirə qarşı etirazlarını bildirmələrini istəyirik.*

*Bizlər müxtəlif xalqların nümayəndələri ola bilərik. Dilimiz, dinimiz, milliyyətimiz fərqli ola bilər. Amma, hər hansı bir dinin peyğəmbəri təhqir edilirsə, bu o deməkdir ki, bütün dinlərin peyğəmbərləri təhqir olunur. Bir peyğəmbərin inkarı, bütün peyğəmbərlərin inkarı deməkdir. Deməli, bu Allaha qarşı üsyandır.*

*Bu təhqir hansı bir dini çərçivəyə sığır? Bu hansı dinin əmridir? Əlbəttə ki, heç birinin. Nə yəhudi, nə xristian, nə də müsəlman dini bu məqsədlərə qulluq etməyib.*

*Hər bir insan anlamalıdır ki, bu iblisin (lən) qurduğu fitnələrdir. Bu, dini olmayan, Allahı tanımayan insanların öz şəxsi qəzəbləri üzündən şeytana qulluqları nəticəsində dünyanı qarışdırmaq üçün oynadıqları bir oyundur. Onlar Allahın əmrlərinə itaət etmədikləri üçün də Allahın rəhmətindən qovulacaq və lənətə düçar olacaq kimsələrdir.*

*Bu gün müsəlman ümmətinin, sevgili Peyğəmbərini (s) təhqir edənlər – sabahkı günləri üçün mütləq peşiman olacaqlar.*

*Bu gün haqsız əməllər edənlər, gələcəklərinə təsir edərək, sabahlarını dəyişəcəklər, heç də yaxşı tərəfə müəyyənləşdirməyəcəklər.*

*Bugünkü həyatları, dostluqları, işləri, elmləri sabahları üçün heç də gözəl müjdələr gətirməyəcək.*

*Bugünkü əməlləri, ölümdən sonra onları nə Allaha, nə də peyğəmbərlərinə qovuşdurmayacaqdır.*

*Həzrət İsaya (ə) nisbət verirlər ki, öz şagirdlərinə demişdi: "Mən dövrün sonuna qədər hər gün sizinləyəm".*

*Görəsən bu çirkin əməlləriniz sizi peyğəmbərinizə qovuşduracaqmı?*

*Dilədikləriniz sizə veriləcəkmi?*

*Axtardığınızı tapacaqsınızmı?*

*Nicat qapısını döyəndə, bu qapı sizin üzünüzə açılacaqmı?*

*İsa peyğəmbərə (ə) nisbət verirlər ki, demişdir: "Mühakimə etməyin ki, mühakimə olunmayasınız. Çünki nə hökmlə mühakimə etsəniz, onunla da mühakimə olunacaqsınız. Və hansı ölçü ilə ölçsəniz, o ölçü ilə də sizə ölçüləcəkdir" (3.30)*

*Allah Təala bizləri hər növ şeytani fitnələrdən amanda saxlasın!*

# *İslamın məsumiyyəti və günahkarlar!*



***Allahın adı ilə! Bu il 11 Sentyabr hadisələrindən sonra şəxsiyyətsiz birinin, dahi şəxsiyyət olan İslam Peyğəmbərini (s), İslamı, müsəlmanları, insanlığı təhqir edən bir filmi ərsəyə gətirməsi dünyanı etiraz dalğalarının bürüməsinə səbəb oldu. Bu günlərdə bütün dünya bu rəzil və iyrənc təxribata etiraz edir.***

Təbii ki, qərb və ABŞ indi bu məsələyə söz azadlığı, yaradıcılıq azadlığı kimi baxır. Salman Rüştünün mənəvi terroru ilə başlanan müsəlman dünyasına edilən hücumların sonu-hələlik "İslamın məsumiyyəti" adlı kino və bundan sonra Fransada yumor jurnalında dərc edilən təhqiramiz karikaturadır. Amma, niyə "hələlik", çünki bu cür rəzil xislətli və iyrənc sifətli insanlara hələ çox rast gələ bilərik. Amma, bu şəxslər anlamırlar ki, onlar belə etməklə təkcə, gündən-günə artan müsəlmanların heysiyyətinə toxunub onları təhqir etmirlər. Ümumilikdə bütün insanlığı, bütün bəşəri, bütün vicdanları, bütün dinləri təhqir edirlər.

Çünki İslamı təhqir etmək- Həzrət Adəmdən (ə) Həzrət Muhəmməd (s) peyğəmbərə qədər bütün dinləri, şəriətləri, müqəddəs kitabları, müqəddəs təlimləri təhqir etmək deməkdir. Həzrət Muhəmmədin (s) təhqiri, Həzrət Musanın (ə) və Həzrət İsanın (ə) təhqiridir. Əlbəttə ki, bu rəzil təşəbbüsdə bulunanlar qafildirlər və anlamırlar ki, bu cür provakasiyalar-istər maddi terror şəklində olsun, istərsə də, mənəvi terror-ancaq və ancaq İslam və müsəlmanların xeyrinə, özlərinin isə ziyanına işləyir.

Məgər, 11 Sentyabr hadisələrindən sonra İslamın dünyada sürətlə yayılmasının şahidi olmadılarmı? Müsəlmanlara təzyiq edildikcə onların sayının artması ilk dəfə Həzrət Peyğəmbərin (s) dövründə başladı. O zaman dini aşkar sürətdə təbliğ etmək barədə Allahdan Peyğəmbərə (s) əmr gəldi. Gizli təbliğatdan sonra Peyğəmbər (s) azsaylı möminlərə artıq, aşkara çıxmaq əmrini verdi. O zaman möminlər cəmlənib Məkkədə Kəbə evinin yaxınlığına gəldilər. O zaman bu günün karikaturçuları, salman rüştüləri, zalim hakimləri və s. möminlərə təzyiqlər göstərdilər. Daha sonra anladılar ki, bu cür təzyiq və təqiblər ancaq möminlərin sayının artmasına və yardım görmələrinə xidmət edir.

Təbii ki, bu cür karikaturalar, kitablar, kinolar İslamın izzətini heç zaman azaltmaz. Nə də hansısa xristianın, buddistin İslam dini tərəfindən qəbul edilməsi-İslamın izzət və şərəfini artırmır. Əksinə, birinci dəstə öz izzət və şərəfini əldən vermiş olur, ikinci dəstə isə İslam onları qəbul etməklə şərəflənirlər və izzət sahibi olurlar. Dünyada pislik ancaq bu pisliyi edənə qalır.

Bu provakasiyaya müxtəlif aspektlərdən baxılır. Kimlərsə bunu sırf siyasi sifariş və təxribat kimi qələmə verirlər. Kimlərsə dinlərarası münaqişə yaratmağa səy göstərir. Amma, qlobal dünyada, sivilizasiyalar aləmində bütün dinlərin rəhbərləri insanları vəhdətə səsləyir, birlik olmağa çağırır. Məxsusən də, İslam inancı, Quran buyurur ki, gəlin aramızda müqəddəs olan, hər birimizə əziz olan kəlmələr ətrafında birləşək. Bəli, "lə iləhə illəllah" ətrafında birləşməyə çağıran İslam dininin, İslam Peyğəmbərinin (s) təhqir edilməsinə nə ad vermək olar? Onlar özlərini gözdən salırlar. Onlar özlərini xar edirlər. Onların bu halda hökmlərinin nə olduğu da, gün kimi aydındır.

Bu həmin İslamdır ki, bu həmin Peyğəmbərdir (s), bütün ilahi din və peyğəmbərləri (ə) müqəddəs və əziz bilir. İslam inancına görə, adını bildiyimiz, bilmədiyimiz hər hansısa bir peyğəmbəri- fərq etmir hansı qövmə, hansı şəhərə, hansı ailəyə göndərilib-söymək, təhqir etmək və hətta, qəbul etməyib inkar etmək küfrdür və o şəxs kafirdir. İslam Həzrət Musanı (ə) pak bilir, Həzrət İsa (ə), Xanım Məryəm (ə), ümumiyyətlə bütün peyğəmbərlər məsumdurlar. Bütün peyğəmbərləri məsum bilən bir dini təhqir edən şəxs bütün peyğəmbərləri, nübuvvəti təhqir etmiş kimidir.

Bu rəzil və iblis mahiyyətli insanların islam Peyğəmbərini (s) təhqir etməklə əslində özlərini, öz dinlərini təhqir etmələrinin başqa bir sübutu da budur ki, hər bir insanda fitri olaraq belə bir hiss var ki, onun müqəddəslərini, qeyrətini, namusunu, hətta, ailəsini söysən, o da ən yaxşı halda həmin tərzdə cavab verər və sənin müqəddəsatını, qeyrətini, heysiyyətini və ailəni söyər. Deməli, başqasının ailəsini söyən və təhqir edən şəxsdən qeyrət və qeyrətlilik gözləmək olmaz. O, artıq, özünü söydürməyə, öz din və peyğəmbərini söydürməyə razı olan bir şəxsdir.

Amma, təbii ki, bu rəzillər və iblis mahiyyətlilər bilirlər ki, bir az əvvəl qeyd etdiyimiz məsələni Quranda Allah Peyğəmbərinə (s) bildirir və "sən onların müqəddəs bildiklərini söymə ki, onlar da, sənin müqəddəs bildiklərini söyməsinlər"- deyə, buyurur. Bu rəzil və iblis mahiyyətlilər gözəl anlayırlar ki, İslam üçün Həzrət Muhəmməd (s) əziz və müqəddəs olduğu kimi, Həzrət Musa (ə), Həzrət İsa (ə), Həzrət Məryəm (ə) də, əziz və müqəddəsdir. Çünki onlar da İslam (təslimiyyət) dinini təbliğ və himayə ediblər. Sonra demokratiyadan, söz və yaradıcılıq azadlığından, tolerantlıqdan danışırlar.

Əlbəttə ki, belələrini nə musəvilik dinindən, nə isavilik dinindən nə də insanlıqdan saymaq olar. Bunlar heyvandan da aşağı məxluqlardırlar. Onların etdikləri nə demokratiyaya, nə insan haqlarına, nə beynəlxalq qanunlarda müəyyən edilən azadlıqlara sığmır. Çünki onların ailələrinin bir üzvünü belə təhqir etsələr, onlar bununla razılaşmazlar. Əgər bu rəzil işlərin arxasında hər kəsə bəlli olan məlum dövlətlər bu rəzilləri həmən cəzalandırsın, filmlərə qadağalar qoysunlar.

Bir məsələ də, var ki, belə hadisələr yatışdıqdan sonra müsəlmanları (nəuzu billah) vəhşilik etməkdə, sındırmaqda, dağıtmaqda suçlayırlar. Amma, etiraz insanın içindən gələn fitri bir duyğu və nemətdir. Peyğəmbərləri (s), dinləri təhqir edildiyi halda müsəlmanlar nə etməlidirlər ki? İslam məsumdur, amma siz günahkarsınız!!!

# BÖYÜK İSLAM ALİMLƏRİ VƏ MÜCTEHİDLƏRİN İSLAM PEYĞƏMBƏRİ HƏZRƏT MƏHƏMMƏDİ (S) TƏHQİR EDƏN NALAYİQ FİLMLƏ BAĞLI FİKİRLƏRİ






## Ayətullah Xamenei Peyğəmbərə (s) edilən hörmətsizliyə qarşı tədbirlər planını açıqlayıb

Ayətullah Seyid Əli Xamenei İslam müqəddəslərinə, xüsusilə Həzrət Peyğəmbərə (s) hörmətsizlik edənlərin qarşısını almaq üçün yollar təklif edib.

O bildirib, dünyada baş verənlər, islam ölkələrinin işğal edilməsi, müsəlmanların qanlarının axıdılması aydın şəkildə göstərir ki, bu hörmətsizliklərin arxasında dayananlar var.

Ayətullah Xamenei bu halların təhlükəli nəticələri ola biləcəyinə işarə edərək 6 bənddən ibarət tədbirlər planı açıqlayıb:

1. Peyğəmbərin (s) həyat tərzi və kəlamlarına yenidən diqqət yetirmək.
2. İslamin həqiqi çöhrəsini tanıdaraq, onun qorxulu və radikal olduğu barədə yaradılan təsəvvürləri aradan qaldırmaq.
3. İslam düşmənlərinə qarşı Həzrət Peyğəmbərin (s) ətrafında müsəlmanların vəhdətini təmin etmək.
4. Baş verən hadisələrin pərdəarxası məqamlarına diqqət yetirmək.
5. Müsəlmanlar və xristianlar arasında yarana biləcək hər növ münaqişədən uzaq olmaq.
6. Bu cinayətləri törədənlərə qarşı hüquq çərçivəsində mübarizə aparmaq, onların cəzalandırılmasını tələb etmək.

## Müsəlmanlar Peyğəmbərin (s) təhqirinə çox güclü şəkildə etiraz etməlidirlər

Ayətullah-üzma Məkarim Şirazi, amerikalıların Hz. Peyğəmbər (s) əleyhinə çəkilən filmlərinə diqqət çəkərək, hadisəyə müsəlmanların çox güclü bir şəkildə reaksiya vermələri lazım olduğunu söyləyib.

Qurani-Kərimi yandıran amerikalı bəzi xristian alimləri və bəzi yəhudilərin əməkdaşlıq etdiklərini xatırladan Ayətullah Məkarim Şirazi, indi isə Hz. Peyğəmbər (s) əleyhinə film nümayiş etdirməklə müttəfiqlik etdiklərini bildirib.

Ayətullah Məkarim Şirazi, haqqında danışılan filmlərin təməlində, İslami oyanış dalğasından qorxulduğunu ifadə edərək, bölgədəki İslami oyanış dalğasının İslam düşmənlərini böyük bir dəhşətə saldığını bildirib.

## Ayətullah Cəfər Subhani islamofob filmi qınadı

Ayətullah Cəfər Subhani, bütün insanlığın qurtuluşu üçün göndərilən Hz. Peyğəmbərin (s) bütün ilahi din mənsubları tərəfindən xüsusi bir sevgi və hörmətə sahibdir və film dünya müsəlmanlarını yaraladı.

Ayətullah Cəfər Subhani, dünyanın dörd tərəfində yaşayan müsəlmanları bu kimi İslam əleyhdarı cəhdlərinə lazımlı reaksiya verməyə çağırıb və İslam düşmənlərinin oxşarı cəhdlərinin qarşısının alınmasını vurğulayıb..

## Ayətullah Sistani islamofob filmə etiraz etdi

Ayətullah-üzma Seyid Əli Sistani, ABŞ istehsalı olan Hz. Muhəmmədin(s) təhqir olunduğu filmə sərt şəkildə etiraz edib və Birləşmiş Millətlər Təşkilatının bu mövzuda bir qanun qəbul edərək bu cür hərəkətləri cinayət hesab olunmasını tələb edib.

Ayətullah Sistani bu filmin məzmunu çox çirkin, həqiqətən son dərəcə uzaq və yalnız Peyğəmbərimizin (s) uca şəxsiyyətinə hörmətsizliyi ön plana çıxardığını ifadə edib.

## Ayətullah-üzma Nuri Həmədani, Hz.Muhəmmədin (s) təhqir edildiyi filmə sərt şəkildə reaksiya verib.

Müsəlmanların, İslami dəyərlərə və İslam peyğəmbərinə istiqamətli bu şeytani hərəkət qarşısında, susqun qalmaması lazım olduğunu ifadə edən Ayətullah-uzma Nuri Həmədani, bu işi törədənlər müsəlmanların sərt reaksiyasını gözləməlidir deyə danışıb.

## Ayətullah Safi Gülpayqani islamofob filmə sərt şəkildə etiraz etdi

İslam alimlərindən müctəhid Ayətullah Safi Gülpayqani islamofob filmlə əlaqədar  bəyanat verib. Ayətullah Safi Gülpayqani verdiyi bəyanatda İslam düşmənlərinin bu iyrənc oyunları qarşısında Beynəlxalq elmi mərkəzlərin, azadlıq tərəfdarlarının və müsəlmanların hərəkətə keçməyə və bu cür xəyanətlərə icazə verməməyə çağırıb.

## Bakı İçərişəhər "Cümə" məscidinin imam-camaatı, DEVAMM sədri Hacı İlqar İbrahimoğlunun yaydığı bəyanatda bildirilir:

"Bismillahir-Rəhmanir-Rəhim!

Bu günlərdə dünyanın 1 milyarddan çox insanının inancı olan müqəddəs İslam dininə qarşı növbəti mənəvi terror həyata keçirilməkdədir. Belə ki, özünü yəhudi əsilli amerikalı kimi təqdim edən birinin 100-ə yaxın yəhudi milyonlarla dollar həcmində maddi dəstəyi ilə çəkdiyi "Müsəlmanların məsumluğu" filmi, mübaliğəsiz olaraq, dünyanı silkələmişdir. Bu günə qədər hələ ki, cinayəti törədənlər ABŞ-da məsuliyyətə cəlb edilməmiş, üstəlik bunu özünüifadə azadlığı kimi yeritmə cəhdləri də müşahidə edilməkdədir. Faktiki olaraq, özünüifadə kimi ümumbəşəri dəyərlər, rəzil mənəvi cinayətlər vasitəsilə erroziyaya uğradılmaqdadır. Bunun nəticəsi olaraq, dünyanın hər yerində müsəlmanların haqlı etirazları yer almaqdadır.

Əslində baş verənlər - salman rüşdü ilə başlayan, danimarkalı rəzil karikaturalarla davam edən, Quran yandırılması ilə daha da eybəcərləşdirilən bir islamofobik sürəcinin növbəti dalğasıdır. Açıq-aydın görünür ki, ilahi paradiqma daşıyıcılarına nisbətdə, güclə və zorən iblisvari paradiqmanı qəbul etdirmə səyləri edilir. Yəni mahiyyət etibarilə, hər nəyin bahasına olursa-olsun, inanclı insanları, öz inanclarının təhqir olunmasına öyrəşdirmək, təhqirlərə yanaşmalarını adiləşdirmək və təfavütsüzləşdirməklə səciyyələnən davamlı və sistemli iblisvari cəhdlər edilir.

Özünü islam inancına aid edən hər kəs, bu ağır imtahanlar qarşısında ilahi paradiqmanın üzərində daha da sabit dayanmalı və bu kimi iblisvari səyləri puça çıxarmalıdır.



# DUA mənbələrində



***Bağışlayan və mehriban Allahın adı ilə. Həmd olsun aləmlərin rəbbi olan Allaha. Allahın salavat və salamı olsun Məhəmmədə və onun pak ailəsinə. İlahi, öz kərimliyin xatirinə bizim əməllərimizi xalisləşdir və öz rəhmətinlə bizə başa düşməkdə və başa salmaqda tofiq ver. Ey rəhimlilərin ən rəhimlisi!***

Məsumlardan (ə) bizə gəlib çatan dualar tərbiyəvi baxımdan ən lazımlı sərmayələrdir. Bu dualarda səmavi və rübubi maarif vardır. İmamlar (ə) uca maarifi dualar vasitəsilə bəyan etdikləri kimi, rəvayətlərdə deməmişlər.

Həqiqət budur ki, Mütəal Allaha tərəf seyr etmək istəyən şəxs gərək bu duaları araşdırsın, onunla yaxından tanış olsun. Bu dualar uca maarif olmaqdan əlavə, insanlar üçün növhə və rövzədirlər.

**Camaat öz ürəklərinin tərəbxanəsinin ardıncadırlar**
**Amma mən öz dəli ürəyimə mərsiyəxanam**

İnsanın rövzəyə ehtiyacı vardır. Necə ki, imam Səccad (ə) buyurur: “İlahi, özümə ağlamaqda mənə kömək et!” Nuh (ə) peyğəmbərin “nuh” adlanmasının səbəbi, onun özünə ağlaması olmuşdur.

Əgər növhəxan müsibəti kamil surətdə təsvir edə bilsə, dəyişiklik yarada bilir. Əxlaq ustadı da o ustaddır ki, insan nəfsi üçün rövzə oxusun. Yəni, rövzəxan rövzə oxuyaraq insanı dəyişdirə bildiyi kimi əxlaq ustadı da insanı öz nəfsinə qarşı dəyişdirə bilsin. Mirzə Cavad Mələki Təbriziyə dedilər ki, sizin dərsinizdə bəziləri özlərindən gedirlər (Belə əxlaq ustadı barədə demək lazımdır ki, gör necə rövzə oxuyurmuş). Ustad dedi: “Mən elə bir iş etməmişəm. Onların mövlası həzrət Əli (ə) hər gün özündən gedirdi”.

Mirzə Cavad Mələki Təbrizi deyir: “Bir nəfəri tövbə etmək üçün Molla Hüseynqulu Həmədaninin yanına gətirdik. Ağa Həmədani (mənim sözümlə desək) onun nəfsi üçün bir qədər rövzə oxudu. Mən 48 saatdan sonra həmin oğlanı gördüm. Halbuki, onu güclə tanımaq olurdu”. Məlum olur ki, ürəkdən əməl etmişdir. Çünki, rövzəxan ona ürəkdən rövzə oxumuşdur.

Ən ümdə məsələ budur ki, insanı öz batininə və dərdinə tərəf yönəldə, dərdlərini göstərə, ondan agah edə bilələr. Belə olduqda insan işə başlayacaq. İmam Xomeyninin (rh.) bu barədə gözəl sözü vardır: “Bütün rəzilə sifətlər islah olandır. Ən ümdə məsələ onları islah etmək fikrinə düşməkdir”.

Ümdə məsələ insanın həyatında onu islah üçün tərpədə biləcək bir nəfərin tapılması, ya bir işin qarşıya çıxmasıdır. Bundan sonra insan qəflətdən ayılaraq yola düşür. Nasir Xosrov qırx il yatmışdı. Yalnız bir dəfə yuxu gördü və bu yuxu ilə də öz qırx illik yuxusundan ayıldı və yola düşdü. Halbuki, o hökumətin divan (qəzavət) işlərini idarə edirdi və maddi cəhətdən heç bir çətinliyi yox idi. Amma yuxudan ayıldıqdan sonra maddiyat onu qane etmirdi.

**Ey həqiqət axtarıcısı, bu həqiqəti bil**
**Hər kim ki, bir şey qazanıbsa**
**Hər kim çox agahdırsa, çox dərdlidir**
**Hər kim çox dərdlidirsə, rəngi saralmışdır.**

Əxlaq ustadlarından biri deyirdi: “Kiçik olduğum vaxtlarda filin şəklinin həmişə əlində külüng tutmuş filçi ilə birlikdə çəkilməsinin səbəbini bilmirdim. İmam Xomeyninin (rh.) əxlaq dərsinə getdiyim vaxt, o dedi: “Filçi gərək həmişə filin başına vursun ki, filin yadına Hindistan düşməsin, yoxsa onu işlədə bilməz”.

Bəli, bu dünyada insanın ayılmaması, özünə gəlməməsi üçün onun başına çox şey vururlar. Əgər insanlar öz vücudlarının həqiqətindən agah olsalar, dünyanı dəyişmək olar. Bunlar hamısı insanın dərdlərinin başlamasından sonradır; insan olmaq dərdindən, Mütləq Vücudda fani olmaq dərdindən, Uca başlanğıcla əlaqə yaratmaq dərdindən... sonradır. Hafiz demişkən:

**Xoş o kəsin namaz və duasının halına ki, dərd üzündən**
**Göz yaşıyla, ürək qanıyla təharət alıb.**

Moləvi sadə bir molla idi. Bir neçə gün bir dərd sahibi, Şəms Təbrizi ilə birlikdə olduqdan sonra Şəmsə dedi: “Vüqarlı bir ibadət əhli idim, vüqarlı bir molla oldum”.

**Zahid idim, təranəxan etdin**
**Məclislərdə fitnəçi, badəçi etdin**
**Vüqarlı bir abid idim**
**Uşaqların əlində oyuncaq etdin.**

Şeyx Bəhayi Movləvi barədə deyir:

**Mən demirəm o alicənabın peyğəmbər olmasını**
**Amma deyirəm sahib kitab olmasını.**

# İrfan və əxlaq



Moləvi Şəmsə deyir: "Bu sözlərinlə məni dəli edib, dağlara, çöllərə saldın". Məsnəvidə gördüyünüz bu təlatümlər, Movləvinin dərd əhli ilə yoldaşlığından qalxmışdır.

Bir neçə nəfər Peyğəmbərin (s) yanına gəlib, Əlini (ə) pisləmək istədilər. Peyğəmbər (s) dərhal onların sözünü kəsdi və buyurdu: "Əli barədə pis danışmayın, çünki o, Allahın zatında özündən getmişdir".

Bu hədisdə gəlmiş "məmsus" sözünün mənası "divanə" deməkdir. Amma Peyğəmbər (s) Əlinin (ə) Allahın zatında belə olmasını qeyd edir. Bəli, əgər bu yolda bir hidayətçi insanı hidayət etsə və onun dərdlərini özünə göstərsə, təbiətən insan özünü əliboş görərək yola düşəcəkdir. Gərək insanın özünə əliboş olmasını və hətta bütün dünyanı ona versələr belə yenə də əli boş olacağını başa salasan. Nə üçün Allah Adəmə, Həvvaya və şeytana dünyaya getmələrini buyurmur, bəlkə buyurur: "İhbitu" (Enin aşağı). Çünki dünya aşağıdır, yuxarı deyil. Yəni insanın nə qədər dünya malı olsa da yenə aşağıdır.

Dünyada insan yuxarı qalxmır və aşağı endikdə də yalnız öz əhatəsində fırlanır. İnsan dərədə olduğu vaxt, yalnız özünü görür, yalnız heyvani təbiətini hiss edir.

**Əgər yüz il də öz ətrafında dolansan**
**Nə özünü, nə də başqasını tapacaqsan.**

İnsan yüz il öz ətrafında fırlansa, hara çata bilər? Ona görə də həzrət Əli (ə) cahil insanı, dəyirmanda dolanan və bununla da dəyirman daşını hərəkətə gətirib, dəyirmanı işə salan susuz ulağa bənzədir. Bəzən insan altmış il ömrünü fırlanır, amma bir yerə çatmır.

Söhbətimiz dualarda idi. Bu dualara diqqət edin və görün ki, dualarda necə rövzə oxunur və insanı öz dərdlərindən agah olmağa sövq edirlər. Biz onlardan bir hissəsini sizin ixtiyarınızda qoyuruq: "İlahi! Sən məni Özünə tərəf dəvət etdin". Bu duada bir neçə mühüm nöqtə vardır. Burada demək istədiyimiz nöqtə budur ki, əgər insanı Allah dəvət etsə, qəbul da edəcəkdir: "Ey mənim mövlam! Bu sənin sifətindən deyil ki, istəməyə əmr edəsən, amma Öz bəxşişindən məhrum edəsən". Yəni insanı dəvət etdikdən sonra qapını açmaması mümkün deyil. Qapı açıqdır.

Biz bunu ürəyimizin bir guşəsində yerləşdirməliyik ki "Allahın qapısı bağlı deyil, bəlkə bizim əlimiz və ayağımız bağlıdır".

Həzrət imam Səccad (ə) Əbu Həmzə duasında buyurur: "Ey mənim Pərvərdigarım! Mən yəqinliklə bilirəm... Sən öz yaratdıqlarından pünhan deyilsən".

**Pəriüzlünün pünhan qalmağa taqəti yox**
**Əgər qapını bağlasan, ən kiçik bacadan belə özünü göstərər.**

Bəli, Mütləq Camal və Feyz sahibi pünhan qala bilməz. İmam Zaman (əc.) da feyzə səbəbdir və o da pünhan qala bilməz. Tusi "Təcrid"in şərhində deyir: "Vucuhun lütf", yəni ağanın vücudu lətifdir. "Təsərrüfühü lütfün axər", yəni hökuməti də başqa lütfdür. "Və ədəmuhu minna", yəni onun bizim yanımızda olmaması, bizim özümüzdəndir.

İmam Səccad (ə) duanın davamında buyurur: "Bu əməllərimizdir ki, bizim gözümüzü pərdələmişdir". Əbu Həmzə duasını oxuyun və görün ki, Allahı görə bilməməyimizin səbəbi bizim əməllərimizdir. Həzrət Əli (ə) Kufə bazarından keçdikdə bir nəfərin satıcıya belə and içməsini eşitdi: "Yeddi göyü özünə hicab qərar vermiş Allaha and olsun". Həzrət əlini onun çiyninə vurub, buyurdu: "Sənin and içdiyin allah deyil. Allahın hicabı yoxdur". O şəxs dedi: Ey Əli, onda kəffarə verməliyəmmi? Həzrət buyurdu: "Sən Allaha and içməmisən ki, kəffarə də verəsən". Həzrət Əlidən (ə) "yerlə göyün arasında nə qədər fasilə olmasını" soruşan şəxs, Allahın göydə olmasını fikirləşirdi və elə bilirdi ki, dua gərək bu yoldan keçsin. Həzrət ona buyurdu: "Gözün görə bildiyi və məzlumun duasının yetişməsi qədər". Yəni, əgər zahiri soruşursansa, (fasilə) gözlə görə bildiyin qədərdir. Amma həqiqəti istəyirsənsə, heç bir fasilə yoxdur. Necə ki, məzlumun duası ilə Allahın arasında fasilə və hicab yoxdur.

Ravi deyir: "İmam Məhəmməd Baqirin (ə) evinə getdim və bir uşağın açıq qapı qarşısında namaz qılmasını gördüm. İmama (ə) dedim ki, siz açıq qapı qarşısında namaz qılmağı məkruh bilirsiniz. Bəs nə üçün sizin oğlunuz açıq qapı ilə üzbəüz namaz qılır? İmam (ə) buyurdu: "Özündən soruş". Onun (həmin uşaq imam Sadiq (ə) idi) namazını qılıb qurtarmasını gözlədim. Namazı qurtardıqdan sonra soruşdum: Sizə qurban olum, açıq qapı qarşısında namaz qılmağın məkruh olduğunu bildiyiniz halda nə üçün belə namaz qılırsınız? Buyurdu: "Mənim ona namazı qıldığım Allah, bu açıq qapıdan mənə yaxındır".

Allah uzaqda deyil, Allah yaxındır. Bir nöqtə də öz əhlinə demək istəyirəm. Allah insana yaxındır, amma məsələ budur ki, gərək sən özünün Allaha yaxın olmağını hiss edəsən. Günah, bu hissi insanın əlindən alır. Elə ki, insan Allaha yaxın olmağını hiss etdi, işləri ondan sonra düzəlir. Amma

nə qədər ki, insan günah edir, üzü qara olur və bu üzdən də özündən qaçır, işlər düzəlmir. Xüsusilə də Allah onu qəbul etmir. Əgər sən Allahdan üz döndərmisənsə, Ona tərəf qayıtmaq çətin deyil, yenidən qayıt, gəl Allaha tərəf.

**Əgər Allahdan üz döndərsən, iş çətin deyil**
**Çətin bizim işimizdir ki, Allah bizdən dönmüşdür.**

Bir dəfə insan Allahdan üz döndərir. Belə şəxs yenə Allaha tərəf qayıda bilər. Amma bir dəfə də budur ki, "Üsuli-Kafi"də gəlmiş hədislə desək: "İzzət və Cəlalıma and olsun ki, daha səni bağışlamayacağam"- dərd burasındadır. Bundan sonra insan tövbə etməyə nə qədər çalışsa da, müvəffəq olmur. Nə üçün? Çünki, Allahın inayəti ondan kəsilmişdir. Əbu Həmzə duasında oxuyuruq: "(İlahi!) Mənə nə olmuşdur ki, hər vaxt deyirəm ki, daha islah olmuşam və Sənin dostlarının məclisinə daxil olmağa az qalmışam; qarşıya bir bəla çıxır və Sənin xidmətində olmağıma mane olur".

Gəlin, bu məsələ üzərində düşünək ki, Allah "gəl" deyir. Biz də deyək ki, ilahi, Sən çağırdın, mən də gəldim. Allah qapını bağlamır və "babuhu məftuhun lir-rağibin", yəni Onun qapısı bütün istəyənlər üçün açıqdır və insanı qəbul edir.

Əməllərin qəbulu barədə söhbət etmirəm. Sözüm, Allahın insanın özünü qəbul etməsindədir. Bu barədə rəvayət və dualarda incə nöqtələr vardır. Bu barədə gəlmişdir: "İqbilni, ya qabiləs-səhərəh", "Ya mən la yurəddu sailəh". Yəni, ey o Allah ki, qapını "get" demək üçün açmırsan.

İmam Səccad (ə) dualarında deyir: "İlahi, elə bir şəxs tapılarmı ki, desin: mən Allahın qapısına qonaq getdim, amma O məni qonaqlığa qəbul etmədi?"

Sonra yenə buyurur: "Elə bir şəxs tapılarmı ki, desin: mən dəvəmi Allahın evinin qapısında yatırdım (yəni ümid gözü ilə Onun dərgahına göz dikdim), amma məni naümid etdi?" İmam (ə) buyurur ki, belə deyil. "İlahi, qapı bağlı deyil, bizim əlimiz bağlıdır". Kumeyl duasında oxuyuruq: "İlahi, əl-ayağımı elə bağlamışam ki, yerimdən tərpənə bilmirəm, bunu aç!" "İlahi, əməllərim məni zəncirləmiş və yerə oturtmuşdur!" İnsan nə ilə özünü zəncirləyir? Günahla. Bir nəfər həzrət Əlinin (ə) yanına gəlib dedi: "Ey Əmirəl-möminin! Mən gecə namazı qılmaq üçün nə qədər çalışsam da qıla bilmirəm. Nə üçün belə oluram?" Həzrət Əli (ə) ona buyurdu: "Günahların sənin əl-ayağını bağlamışdır. Ona görə də gecə yatağından qalxa bilmirsən".

Heç imam Rzanın (ə) ziyarətinə getmisənmi? İnsan Təbrizdən Məşhədə qədər bu qədər yolu avtobusla getsin, bu qədər əziyyət çəksin. Sənə nə istəmək lazım olduğunu öyrədirlər. Bunu öyrənməyinizi xahiş edirəm. "يا ابا الحسن، إنّ بَيني وَ بَينَ اللهِ ذُنُوباً قَد أثقَلَت ظَهري" "Ey Əbəl-Həsən! Günahlarım məni aşağı çəkir, əlimdən tut!" Allah hamımıza Kərbəla ziyarətini nəsib etsin. Hərəmdə əhli-beytə (ə) üz tutaraq, bu duanı oxuyuruq: " لا خَلَّفني اللهُ عَنكُم بذُنُوبي" "Allah günahlarıma görə məni sizdən uzaq salmasın, ayırmasın."

Bəli, insan günahlarına görə karvandan geri qalır. irəli gedə bilmir. Bəzən bir günah insanı Vəliyullahi Əzəmin (əc.) gözündən salır, insanı əksildir. Heç fikirləşmisiniz ki, nə üçün günaha "həvy" deyilir. "Həvy", yəni düşmək, "haviyə", yəni düşürən. Günah etdi, yəni süqut etdi.



Bir zinakara hədd vururdular. Həzrət Yəhya (ə) buyurdu: Daşları atmayın, gözləyin. Onlar həzrət Yəhyanın (ə) nə edəcəyini bilmək üçün dayandılar. O, qabağa getdi. Zinakarın bədəninin bir qədərini torpağa basdırmışdılar. Onun yanında ədəblə oturdu. Bilirsinizmi, nə dedi? İnsan bu sözü deyərkən canı lərzəyə düşür. Buyurdu: "Məni nəsihət et!" Diqqət edin! Ona başqa heç nə demir, yalnız deyir ki, məni nəsihət et!

Peyğəmbər (s) Cəbrailə deyirdi ki, mənə moizə et! İbn Məsuda dəfələrlə deyirdi ki, mənim üçün Quran oxu! Əmir əl-möminin (ə) Səsə ibn Suhana dedi ki, mənə moizə et! Bunlar hamısı Qurani-kərimə qayıdır. Allah ulul-əzm peyğəmbərlərdən olan Musaya (ə), Xızır (ə) kimi tanınmayan peyğəmbərin yanına getməyi və onun qarşısında dizini yerə qoyaraq elm öyrənməyi əmr edir.

Həzrət Yəhya (ə) zinakarın qarşısına gəlib, ondan nəsihət istəyir. Zinakar deyir: "Ey Yəhya! Günah etmə, mən günah etdim, Allahın nəzərindən düşdüm". Günah süqut deməkdir. İnsanı əksildir.

"İlahi! Sən məni Özünə tərəf dəvət etdin". Allah insanı Özünə tərəf dəvət edirsə, onu rədd etmir. Çünki əgər rədd esə, istəyinin əksi olar. Allahın adlarının biri də Şəkurdur. Şəkur, yəni çox təşəkkür edən. Əgər bir dəfə "La ilahə illəllah" desən, sənə təşəkkür edir. Hətta, bir zərrə də bu dünyada hədər getmir. Bu dünya, hesab dünyasıdır: "Hər bir şeyin onun yanında müəyyən bir miqdarı (ölçüsü) vardır". ("Rəd" surəsi, ayə 8.) " Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!" ("Yunis" surəsi, ayə 61.) Cənnət əhlinin cənnətə daxil olduqları vaxt dillərində olan zikr budur: "Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun. Həqiqətən, Rəbbimiz bağışlayandır, qədirbiləndir!" ("Fatir" surəsi, ayə 34.)

Allahın adlarından biri də "Səriul-vəfa", yəni tez vəfa edəndir. Sizin özünüzə gəlməyiniz üçün O, tez vəfa edir. Həzrət buyurur: "Möminin qüslxanada kəfəni qurumamış, hurul-eynlə görüşür". Allah öz vədinə bu qədər tez vəfa edəndir. Həzrət buyurur: "Cənnətlə sizin aranızda yalnız bir ölüm fasilə vardır". Gözü bağladı, tamam oldu. Allah təkcə axirətdə yox, bu dünyada da tez vəfa edəndir. Özü Quranda buyurur: "Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizinlə olan əhdə vəfa edim". ("Bəqərə" surəsi, ayə 40.) Allah nə vədəsi vermişdir?

Allah əhd edibdir: “Bizim yolumuzda cihad edənlərə şübhəsiz Öz yollarımızı göstərərik”. (“Ənkəbut”surəsi, ayə 69.) Mütəal Allah yenə buyurur: “Şübhəsiz bizim rəbbimiz Allahdır, deyən sonra möhkəm duran kəslərə mələklər nazil olarlar, əsla qorxmayın və qəmgin olmayın sizə vəd olunmuş cənnətlə müjdə olsun sizə. (“Fussilət” surəsi, ayə 30.) Əhli-beytdən (ə) olan hədislərdə də buyurulur: “Dünya və axirətdə sizin rəhbərlərinizik”. “Mələklər bizim və bizi sevənlərin xidmətçiləridir “.

Bir əxlaq ustadı Nəcəfdən gəlmiş alimlərin birindən belə nəql edir: “Nəcəfdə olduğum vaxtlar gecələr gecə namazının vaxtında məni çağırırdılar və deyirdilər: “Ağa qalx ayağa!”, bəzən də deyirdilər: “Şeyx qalx!” və məni gecə namazına oyadırdılar. Mən həmişə təəccüb edirdim ki, nə üçün onlar bəzən mənə hörmətlə yanaşır və “Ağa, qalx ayağa!”, bəzən də adi vəziyyətdə “Şeyx qalx!” deyirlər. Çox düşündükdən sonra başa düşdüm ki, hər vaxt ciddi müraqibət etsəm, həmin gecə “ağa”yam və məni “Ağa, qalx ayağa” deyə səsləyirlər.

Ayətullah Bürucerdinin hüzurunda kitab yazanlardan biri deyir: “Mən öz gözümlə görürdüm ki, ağa (Ayətullah Bürucerdi) oturub, uşaq kimi ağlayır. Ondan ağlamağının səbəbini soruşduqda, deyirdi: “Mən Bürucerddə olduğum vaxtlar bəzi şeylər mənə deyirdilər və mən bəzi şeylər eşidirdim. Amma mərcəiyyət bunların hamısını əlimdən aldı. İndi özümə diqqət edə bilmirəm”. O böyük mərcəi-təqlid həftədə iki dəfə Fatimə Məsumənin (ə) hərəminə gəlir, üzünü müqəddəs zərihə qoyur və deyirdi: “Ya Fatimətu! İşfəi li fil-cənnəh”. (Ey Fatimə! Cənnətdə mənə şəfaət et!) Hətta, cümə axşamları dəftərxanasını tətil edir və deyirdi ki, gedin ziyarətə.

Şeyx Ənsarinin şagirdləri dərs otağına gəlib, şeyxin dərsə başlamasını gözləyirdilər. Amma görürdülər ki, şeyx əsa əlində Kufə məscidindən gəlir. Şeyxdən haradan gəlməsini soruşduqda, deyirdi: “Allahla xəlvət etməyə, sözümü deməyə getmişdim”.

Özünü gözləyən adamlara Allahın inayəti vardır. Şəhid Sani deyir: “Mən elə inayətlər görmüşəm ki, əgər yazsam “Bələğə ma yələmhullah” kitabı qalınlıqda olar. Yəni o qədər olar ki, onu yalnız Allah bilir”.

Mərhum Tənkabəni “Qisəsul-uləma” adlı kitab yazmışdır. Həmin kitabda atasının tərcümeyi-halında yazır: “Bir gecə ağlamaq səsi məni yuxudan ayıltdı. Oyanıb, atamın namaz üstə bərk ağlamasını gördüm. Ondan nə üçün ağlamasını soruşdum. Amma demədi. Mənim çox təkidimdən sonra dedi: “Əgər mən ölənə qədər heç kimə deməyəcəyini söz versən, deyərəm. Mən atama söz verdikdən sonra dedi: “Mən namaz qılırdım. Birdən evin bir küncündən səs eşitdim ki, deyirdi: “Ey əməl edən alim!” Bəli, insan alim ola, özü də elminə əməl edə.

Neçə il bundan qabaq bir bəsici mənim yanıma gəlib, bəzi sözlər danışdı. Onun sözləri mənə elə təsir qoydu ki, öz-özümə dedim: ilahi, bu məndən çox əməl edir. O həya ilə mənə dedi: “Mən sizin dediyiniz sözlərin bəzilərinə əməl edə bilmirəm, ona görə də sizin məclisinizə gəlməyə xəcalət çəkirəm. Sizin məclisə gəlməyə mənə icazə verirsizmi?”

*Davamı gələn sayımızda*

**Seyyid Həsən Amili**




*ALLAHIN ADI İLƏ*

*İbtidada “əlif” – Allah,*
*“Be” – birliyə dəlalətdi.*
*“Te” – təkdi vahidi-yekta,*
*Arif bu elmə bələddi.*

*“Se” – sabitdi doğru yola,*
*“Cim” – ucadı, bax calala,*
*“He” – mehribandı halala,*
*Münkir ondan xəcalətdi.*

*“Xe” – birdi xaliqi-əkbər,*
*“Dal” – doğru doqquz fələklər,*
*“Zal” – zikr eylə dildə əzbər,*
*“Re” – rəsulumuz Əhməddi.*

*“Ze” – zəbanı aç Xudaya,*
*“Sin” – salam et, getməz zaya,*
*“Şin” – şövq elə o mövlaya,*
*Qeyri söhbət məsiyətdi.*

*“Sad” – səbri şahi-heydərə,*
*“Zad” – zərbin vurdu Əntərə,*
*“Ta” – tərif çıxdı göylərə,*
*Ağam kani-şücaətdi.*

*“Za” – zülm edəcək düşmənə,*
*“Eyn” – həyati-çeşmanə,*
*“Ğeyn” – ğül-ğüli-dövranə,*
*“Fe” – fəna, “qaf” – qiyamətdi.*

*“Kaf” – “kun” ilə tutub qərar,*
*“Lam” – lal, necə hesab verər,*
*“Mim” – möminə yol göstərər,*
*İsmi-paki Məhəmmədi.*

*“Nun” – nida eylər hər zaman,*
*“He” – hamıya yetər fərman,*
*“Vav” – vay deyər, yatma, oyan,*
*Sanma səhni-zərafətdi.*

*“Lam – əlifla” – birdi Allah,*
*“Ye” – yekdi adil padişah.*
*Ələsgər, tutduğun günah*
*Bağışlansa, çox hörmətdi.*



# İMAMƏDDİN NƏSİMİNİN ŞEİRLƏRİ NƏ DEYİR?!!!

***Seyyid Əli Seyyid Məhəmməd oğlu İmaməddin Nəsimi 1369-cu ildə Şamaxıda anadan olmuşdur. Bəzi tədqiqatçılar onun Bakıda doğulduğunu iddia edir.***

***Azərbaycan şairi, dahi mütəfəkkir "İmaməddin Nəsimi" adı ilə məşhurdur. Şairin atası Seyyid Məhəmməd Şirvanda yaxşı tanınan şəxsiyyətlərdən idi. Nəsiminin bir qardaşı da olub. Onun Şamaxıda yaşadığı, Şah Xəndan təxəllüsü ilə şeirlər yazdığı və hazırda bu adla tanınan qədim qəbiristanlıqda basdırıldığı məlumdur. İslamdan sonrakı dövrdə Şamaxı iri mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Burada çoxlu məktəb, mədrəsə, bütün Şərqdə məşhur olan şeir və musiqi məclisləri fəaliyyət göstərmiş, bundan başqa zəngin ictimai və şəxsi kitabxanalar mövcud idi. Paytaxtdan bir qədər kənarda, Məlhəm adlanan yerdə məşhur şair Xaqaninin əmisi-alim və həkim Kafiəddin tərəfindən yaradılmış Dar-üş-şəfa tibb akademiyası da fəaliyyət göstərirdi. Şamaxıdan ümumiyyətlə bir çox şair və alimlər çıxmışdır ki, onların da arasında böyük sənətkar Əfzələddin Xaqanini xüsusi qeyd etmək lazımdır.***

*(Əvvəli ötən sayımızda)*

## Nəsimi şeirlərində fəlsəfə

Daim ənəl-həqq söylərəm, neçünki Mənsur olmuşam,
Kimdur məni bərdar edən, bu şəhrə mənsur olmuşam.

Qibləsiyəm sadiqlərin, məşuqiyəm aşiqlərin,
Mənsuriyəm layiqlərin, mən beytə məmur olmuşam.

Musa mənəm ki, haqqilə daim münacat eylərəm,
Könlüm təcəlla Turudur, onun üçün Tur olmuşam.

İrdim qaşın mehrabına kim, qabi-qövsün ordadır,
Vəslət şəbində gör məni, sər ta qədəm nur olmuşam.

Bəzmi əzəldə içmişəm vəhdət meyin peymanəsin,
Ol cürədir ki, ta əbəd sərməst-o məxmur olmuşam.

Ey ay uzundur val-zəha və leyl-imiş saçun qara,
Ləlün mənə dar-ul-şəfa, oldur ki, rəncur olmuşam.

Hər yanə ki, dönər üzüm, orda görür həqqi gözüm,
Çun bu qəmindən qəm yedim, şadan-o məsrur olmuşam.

Ol şahidi qeybi mənəm ki, kainatin eyniyəm,
Ol nitqi rəbbani mənəm ki, dildə məzkur olmuşam.

Çun on səkkiz min aləmə, oldu vücudum ayinə,
Ol surəti rəhman mənəm ki, dildə məzkur olmuşam.

Ol gizli gəncin sirriyəm ki, zahir oldu gözlərim,
Ol gövhərəm ki, gün kimi aləmdə məşhur olmuşam.

Çun mən Nəsimi gövhərəm, gəncim sizə faş eylərəm,
Mən bu dolu viranədə gör ki, nə məmur olmuşam.

***

Həqq Təala Adəm oğlu özüdür,
Otuz iki Həqq kəlamı sözüdür.
Cümlə aləm bil ki, Allah özüdür,
Adəm ol candır ki, günəş yüzüdür.

Filosoflar Nəsiminin bu məzmunda olan şeirlərində çox zaman yanlışlığa yol verirlər. Aşağıdakı şeirin anlaşılması isə tamamilə islami məlumat tələb edir.

Yox ikən yer ilə göylər, mən əzəldən var idim .
Gövhərin yekdanəsindən eylər və pərgar idim.
Gövhəri ab eylədim, dutdi cəhani sərtasər,





# Nəsimi

Yer, göyü, ərşi, kürsü yaradan Səttar idim.
Girdim Adəm donuna, hiç kimsə sirrim bilmədi
Mən bu beytullah içində ta əzəldən var idim.
Gəzmişəm mən on səkkiz bin aləmi gərdiş ilə
Dəryanın altında sacı qızdıran ənar idim .
Şul Yezid-Mərvanilər, pustimi soydu qazilər,
Mən "Ənəlhəqq" çağırıb Mənsurilən bir dar idim.
Soydilər pustimi, aldım qayib, oldum ol zaman,
Kimsə bilməz bu rəmuzi, həqqlə sərdar idim.
Mən Nəsimiyəm, həqqi həq tanımışam bigüman,
O idi məni yaradan, həm mən ona dərkar idim.

Nəsiminə bu şeirini bəzən səhv olaraq Xətaiyə mənsub edirlər. Nəsiminin şeirlərində Adəm övladına verilən qiymətə bəlkə də heç bir şairlərin əsərlərində rast gəlmək mümkün deyil. Əlbəttə Nəsiminin fikri insanı Allah tanımaq yox, şeytanın bu cür dəyərli yaradılmış Adəmə səcdə etməməsinə işarədir.

Ey cəmalın Qul huvəllahu əhəd.
Surətin yazısı Allahus Saməd.
Bir ucu zülfünün əzəl, biri əbəd.
Hüsnünə şeytanmış mən lə səcəd.

Bu şeirdə Nəsimi İlahi məqamda olan Adəm övladını Allahın nişanəsi bilir və şeytanı insana səcdə etməməsinə görə Allahın əmrindən çıxmış hesab edir. Bəşərin peyğəmbərlərə rəhmət olaraq yaradıldığını Nəsimi çox gözəl şəkildə tərənnüm edir.

İsanın vəsli bilən Məryəmdədir,
Həqqi Süleyman hikməti Xatəmdədir.
On səkkiz min aləmin sərmayəsi,
Vələqəd kərrəm bəni Adəmdədir.

***

Hər nə yerdə, göydə var Adəmdə var.
Hər nə ayda, ildə var Adəmdə var.
Hər nə əldə, üzdə var qəddimdə var.
Həqq sözün fəhm etməyən adəm də var.

## Nəsimi şeirlərində əxlaq

Nəsiminin tənqid hədəflərindən biri də özlərini arif kimi göstərən bəzi sufilər idi.

Bir məgəsdir balı yox.
Bir ağacdır barı yox...

Burada Nəsimi o dövrün hakim dairələrini, əqidəsiz din xadimlərini, riyakar zahidləri özlərini balverən arıya bənzətmək istəsələr də məgəs (milçək) adlandırmış, barsız ağaca bənzətmişdir. Nəsiminin nəsihətamiz şeirləri də tərbiyəvi cəhətdən çox mühümdür. Şeirlərinin birində ədib təriqət çaşqınlığında qalanlara belə buyurur:

Ey könül hər bivücuddan can umursan, nə əcəb.
Bikərəmdən lütfilən, ehsan umursan, nə əcəb.
Bişəriətlər nə bilsün ənbiyanın şərtini,
Bitəriqətdən rəhe ərkan umursan, nə əcəb?!
Bibəsrdən məniye şövqe kəmale mərifət,
Bixəbərdən söhbəte ürfan umursan, nə əcəb?!
Hər qayanın ləli olmaz, hər dənizin gövhəri,
Hər sədəfdən loloye mərcan umursan, nə əcəb?!
Çun Əzrayil əhsəne təqvimə baş endirmədi,
Onda sirre kəbeye Hənnan umursan, nə əcəb?!
Divuna məhrum ke, tutmaz isme Əzəmdən xəbər,
Əhrimənddən rəhməte Rəhman umursan, nə əcəb?!
Heçmiş zöhdü və zerqi, zahidin əfsanəsi.
Şul fəqihdən məniye Quran umursan, nə əcəb?!
Umma hər qəlbi zoğaldan aşiqin əsrarını.
Kafirin könlündə sən iman umursan, nə əcəb?!
Ey Nəsimi, bivəfadan umma gəl rəsme vəfa.
Bivəfadan əhdilən peyman umursan, nə əcəb?!

Fani dünya, dünya malı Nəsimi gözündə dəyərsiz bir şeydir və eyni zamanda riyakar zahidləri də dünya qəflətində olanlardan hesab edir.

Dünya çun murdardır iyrən könül murdardan,
Gül deyil dünya, tikandır nə umarsan xardan.
Dünyada bir yar vəfalı kimsənə görmüş degil,
Fareğ ol barı, nə hasil şul vəfasız yardan.
Axirət yarından istə hər nə məqsudun ki, var,
Dünyanın miqdarı yoxdur, keç bu bimiqdardan.
Müddəeye cövrü- cəfasın həddən aşrıdı, vəli,
Yar əgər yarı qılırsa qəm, degil əğyardan.
Çun Nəsimi, zahidin halını bildin kim nədir,
Meydən ikrah eyləməz, qafil degil xumardan.

## Nəsimidə İrfani eşq

Nəsiminin eşq haqda olan şeirləri fəlsəfi baxımdan dünya ədəbiyyatının şedevri sayıla bilər. Nəsimiyə görə eşq yalnız Allaha olmalıdır. Bunu isə yəqin əhli olan ariflər duyar. Nəsimi insanın yaradılışının mənbəyini Eşqdə görür. Bəzən alimlər bunu qadın-kişi arasında olan eşqlə qarışdırır. Sual yaranır ki, bəs Adəmlə Həvvanı hansı insanların eşqi yaradıb? Nəticə

bunu göstərir ki, Nəsimi yaradıcı eşqi önə çəkəndə İlahi eşqi nəzərdə tutur.

Eşqlə gəldi cəmi ənbiya
Eşq idi seyre süluke övliya
Eşqilə yola girərlər biriya
Eşqilə vasil olurlar tanrıya

Aşiqdə Kövsər həsrətini Nəsimi aşiqcəsinə bizə çatdırır.

Çun cəmalın məhşərin gülzarıdır,
Hoze Kövsər pəs dodağın narıdir,
Hər ke olsa vəsle hüsnündən cüda,
Ona firqət bəs cəhənnəm narıdir.

Nəsimi burada aydındır ki, Hoze Kövsər deyəndə Əhli-beyti(ə) nəzərdə tutmuşdur. Kim ki, Əhli-beyt(ə) yolunda olarsa, cənnətdə Kövsər hovuzuna qovuşacaqdır. Əks halda bu mümkün deyildir. Necə ki, susuz dodaq həsrətində olduğu suya qovuşmaq istər, insan da gərək bu Kövsər hovuzuna o cür aşiq ola. İnsan suya həmişə ehtiyac hissi duyur və bu zaman suyu ilk hiss edən orqan dodaq olur. Nəsimi dodaqla suyun bu cür "eşqlə" qovuşmasından çox gözəl istifadə etmiş və bizə çatdırmaq istəmişdir ki, insan hər zaman Əhli-beyt(ə) yolunun nəticəsi olan Kövsər hovuzuna şövqlə can atmalıdır....

Aşiqin seyranı şul aləmdədir,
Görməyən ol aləmi matəmdədir.
Kuntu kunzəlin gövhəri Adəmdədir,
Adəm ol meydir ki, came cəmdədir.

Nəsimi İlahiyə qovuşmaq üçün yeganə yolu ixlasdan doğan eşqdə görür. Allah insanı eşqlə yaratdığı kimi insan da yalnız öz Tanrısına eşqlə çatar. Bu eşq isə nə cəhənnəmin qorxusundan ibadət edən zahiddə olar, nə də cənnəti qazanmaq üçün ibadəti ticarət hesab edən abiddə olar. Zahid də, abid də mərifət üçün çalışmalıdır, çünki Allahı tanımağın yolu mərifətə çatmaqdadır. Nəsimiyə görə əsl dindar nə zahid mərhələsində, nə də abid mərhələsində ilişib qalmamalıdır. Əsl dindar daima seyri-süluk yolunda olmalıdır. Çünki arif olmaq istəyən Allahını tanıya bilər, arif olmaq istəyən salikliyini davam etdirə bilər. Zahidin ibadətinin əsasında qorxu, abidin ibadətinin əsasında cənnəti qazanmaq durursa, fəqət arif bütün etdiyi əməllərini İlahiyə olan eşqinə görə edər. Ariflər üçün cənnət mükafat yox Allaha qovuşmaq üçün bir bəhanədir və onlar cənnəti bu səbəbdən qazanmaq istəyərlər.

Könlümün şəhrini çün kim eylədi yəğmaye eşq,
Saldı canım mülkinə şur və şər və qovğaye eşq.
Çaxdımı sirrim aləmə, əsrarımı faş eylədi,
Halıma həmdəm olandan dünyada sevdaye eşq.
Qalmadı namus və nam eşq içində zərrəcə,
Qoymuşam namus və namı, olmuşam rüsvaye eşq.
Nitq imiş aləmdə mövcud, eşq imiş qaime məqam,
Bizə bildirdi əzəldən rəhbəre mövlaye eşq.
Sən humaye laməkansan, kəndi özündən bixəbər,
Gəlmədin ta kim görəsən mənzile əlaye eşq.
Çıx qəfəsdən, gəl-gəl, ey bülbül, gülüstan seyrin et,
Bas qədəm meydane eşqə, görəsən maəvaye eşq,
Eşqlə hərdəm Nəsimi seyr edərsən kuhe Qaf,
Sənsən əvvəl ali məqamda şəhpəre əğnaye eşq.

Nəsimiyə görə ilahi eşqin yolu Əhli-Beytə olan eşqdən qaynaqlanır. Kim bu şəxsləri tanımazsa əsl eşqin nədən ibarət olduğunu bilməz. Qəlbi Həzrət Əli eşqi ilə yanmayan şəxs İlahi eşqin nə olduğunu bilməz.

Eşq əlindən yandı canım, ya Əli səndən mədəd.
Mən qəribe binəvayam, ya Əli səndən mədəd.
Sən mənə lütf və kərəmdən dərdimə bir çarə qıl,
Şah sənsən mən gədayəm, ya Əli səndən mədəd.
Həq Təala öz nurundan xoş yaratmış şahım,
Qüdrəte sirri xudasan, ya Əli səndən mədəd.
Kim Məhəmmədi Əlidən ayrur, lənət ona,
Ləhmikə ləhmi deyilmi, ya Əli səndən mədəd.
Həm Xədicə Fatimə ibni bəni binti Əsəd,
Mədəne dürre həqiqət, ya Əli səndən mədəd.
Bəndeye xəlqe Həsən oldum əzəldə ta əbəd,
Nure eyne Mustafasan, ya Əli səndən mədəd.
Hər Rəcəb ayında gördüm neçə möcüz göstərir,
Şah Hüseynin səduqində, ya Əli səndən mədəd.
Cümlə övlaye dini səndən zühur oldu tamam,
Adı Zeynəlabidindür, ya Əli səndən mədəd.
Baqir və Sadiq yolunda öyündüm mən canimi,
Musa Kazım inayət, ya Əli səndən mədəd.
Bər təvafe kəbə Şahe Xorasan eylədim,
Yetmiş iki həcce Əkbər, ya Əli səndən mədəd.
Həm Təqi və həm Nəqi və varise dine Nəbi,
Dövləte Ali-əbasan, ya Əli səndən mədəd.
Ol İmam Əsgəridir yəni ki, xəlqe Həsən,
Könlüm onda şad oldu, ya Əli səndən mədəd.
Ol Məhəmməd Mehdi Sahibe Zəman ilə zühur,
Aləmi kəffar tutdu, ya Əli səndən mədəd.
Səd hezaran lənət dadar davər hər zaman,
Bər Yezid toxme mərdan, ya Əli səndən mədəd.
Ey Nəsimiye şekəste, Həqdən istərsən nicat,
Coreye tövhid meyindən, ya Əli səndən mədəd.

İndiki dövrdə bəzi bədxah insanlar İmam Hüseyn qiyamını özündə az da olsa ehtiva edən Məhərrəmlik mərasiminin ziddinə çıxırlarsa, 700 il bundan qabaq Nəsimi aşağıdakı misralarla bizə dərs qoymuşdur.

Ey günəş, tire olub düşmədin yerə,
Ol matəm üzrə mehrilə dəyyar ya Hüseyn.....
Ağlamaq bu gün, bu matəmə canlar fəda etmək
Ol matəm üzrə mehrilə dəyyar ya Hüseyn.....

Bəzi dırnaqarası mütəfəkkirlər Məhərrəmlik mərasiminin bizə qonşu İslam ölkələrindən sırındığını qeyd edir. Halbuki klassik Azərbaycan şairlərindən olan Xətai, Füzuli, Şirvani, Sabir, həmçinin həm-

müasirlərimizdən olan Şəhriyar bu mərasimin qeyd olunmasını bizə tövsiyə etmişlər.

Nəsimi şeirlərində mənaları çatdırmaq üçün əbcəd əlifbasından başqa, rəqəmlərdən də çox gözəl istifadə etmişdir.

Arif-i La-məkan otuz ikidir,
Sahib-i cism-ü can otuz ikidir.
Aç könül gözünü və üzünə bax,
Kim yaxın bi-güman otuz ikidir.
Üzün Ümmül kitabın ayəti,
Nə sayırsan, həmən otuz ikidir.
Sidrəttül-mantəha anın əqsamı,
Nə sayarsan, əyan otuz ikidir.
Vahyü ilham, ya Nəbiyyü vəli,
Aşikaru nihan otuz ikidir.
İndi isə götürdü şirkü nifaq,
Bil ki sahib-zaman otuz ikidir.
Der Nəsimi ki, surətü məna,
Şərh ilə həm bəyan otuz ikidir.

***

Yeddidür, dörd yeddidən bir yeddidür,
Yüz iyirmi dörd yenə üç yeddidür,
Evi bir, bacəsi yeddi, bab üç,
Əhli Beyt ilə özü on yeddidür.

***

Ol nədir kim hay və huy altıdır,
Kim görübdür bir sədəfdə altıdır,
Siyo dodan yuxarı hiç nəsnə yox,
Fövq başın, təht ayağın altıdır.

***

Yeddi yerdə otuz ikidür üzün,
Otuz iki göstərər iki gözün,
Qamətin səksən səkkiz edər bəyan,
Yetmiş iki bildirər nitqe sözün.

**Sonda isə Nəsiminin ən gözəl fəlsəfi şeirlərindən biri ilə tanış olaq.**

## İnsan bəşərsən

Mən mülke cəhan, cəhan mənəm, mən.
Mən ərşilə fərşu kafu nunəm.
Mən kövn və məkanu kunfəkanəm.
Mən surəte mənidə həqqəm, həqq.
Bir gövhərəm və qədim əzəldən.
Mən atəşe nur, eşqe həqqəm.
Mən cümlə cəhan, kainatam.
Mən ayəte müsəhhəf və kitabəm.
Mən qövsilə həm kəman və tirəm.
Cəmşide zəmane aləm oldum.
Mən nəqşo xəyalo xətto xaləm.
Mən gənco nəhan, künto kənzəm.
Mən zato sefate kunfəkanəm.
Mən kafirə mövte müsibət oldum.
Mən cənnət və Abe Kövsər oldum.
Mən bəhre mühit və kəranəm.
Mən sirre tövhidəm, hədisəm.
İnsane bəşərsən, ey Nəsimi.

Mən ərş və məkan məkan mənəm, mən.
Mən şərhu bəyan bəyan mənəm, mən.
Bilgəl ki, neşan neşan mənəm, mən.
Mən həqqə əyan əyan mənəm, mən.
Ey gövhəre kan, kan mənəm, mən.
Musaya zəban zəban mənəm, mən.
Mən dəhre zaman zaman mənəm, mən.
Ey nitqə dəhan dəhan mənəm, mən.
Ey tir və kəman kəman mənəm, mən.
Cəmşide zəman zəman mənəm, mən.
Mən hərfo lisan lisan mənəm, mən.
Mən gənce nəhan nəhan mənəm, mən.
Mən ruh ilə cane cəhan mənəm, mən.
Möminə iman iman mənəm, mən.
Ey səhne cənan cənan mənəm, mən.
Ey bəhre kəran kəran mənəm, mən
Həm qeybo güman güman mənəm, mən.
Həqdir ki, həman həman mənəm, mən.

**Vüsal Hətəmov**. (Nəsimişünas)



# QURAN VƏ ELMƏ GÖRƏ

***Elmi nailiyyətlərə və Quran ayələrinə nəzərən məlum altı mərhələ haqqında müxtəlif fikirlər irəli sürmək olar.***

1. Əllamə Təbatəbai “əl-Mizan” əsərində Fussilət surəsinin 9-cu ayəsini izah edərkən yazır:

“Burada “يوم” [yəvm] (gün) sözündən məqsəd zaman kəsiyidir. Adi danışıqda işlədilən gün, yəni Yer kürəsinin öz oxu ətrafında bir tam dövrü müddəti, iyirmi dörd saat (sutka) deyil. Bu versiya təbii ki, yanlışdır. Gün sözü özündə çoxlu hadisələri sığdıran müəyyən zaman kəsiyinə aid olması (ərəb dilində) çox geniş yayılmış haldır”.

Sonra Ali-İmran surəsinin 140-cı, Yunus surəsinin 102-ci ayələrinə istinad edərək yazır:

“Allahın Yeri yaratdığı iki gündən məqsəd Yerin yaradıldığı iki mərhələni əhatə edən zaman kəsiyidir”. Nə üçün bir gün deyil, məhz iki gün deyildiyinə gəlincə, bilməliyik ki, bu iki mərhələ bir-birindən tamamilə fərqli mərhələlər olmuşdur”.

Sonra diqqəti göylərin və Yerin altı gündə (mərhələdə) yaradıldığına çəkib bildirir ki, bu mərhələlərin dördü Fussilət surəsində açıqlanmışdır (iki mərhələ Yerin yaradılışı, iki mərhələ isə göylərin yaradılması haqqında, yəni tüstü halından yeddi səmanın formalaşmasınadək). O, “اربعة ايام” [ərbəətu əyyam] (dörd gün) ifadəsini özünəməxsus şəkildə izah edir ki, növbəti səhifələrdə bu haqda söhbət açacağıq

2. Ustad Misbah Yəzdi “ستة ايام” [sittətu əyyam] altı gün haqqında (Əraf, 56) iki ehtimalı qeyd edir:

a) Həftənin altı günü (adi günlər);

Onun fikrincə bu fikir əhli kitab, xüsusilə yəhudilər arasında məşhurdur. Onlara görə Allah yaradılışı bazar günü başladı, cümə günü sona yetirdi. Şənbə günü isə istirahət etdi. Bu ehtimal doğru deyil

b) Yaradılışın altı mərhələsi.

O, “يوم” [yəvm] sözünün Quranda hansı mənalarda işləndiyindən söhbət açaraq bildirir ki, “يوم” [yəvm] sözü gün mənasından fərqli mənalarda da işlənmişdir. Buna dəlil olaraq Yusuf (54), Nəhl (8), Həcc (47), Məaric (4) ayələrini və “Nəhcül-bəlağə”dən bir hədis qeyd edib nəticə alır ki, bütün bunlar altı gündən məqsədin yaradılışın altı mövsümü, mərhələsi olması ehtimalının daha məqsədəuyğun olduğunu göstərir.

O, Fussilət surəsinin 9-12-ci ayələrini izah edərək yazır:

“Ehtimal vermək olar ki, iki gündən məqsəd göyün yaradılmasındakı iki mərhələdir. İlk mərhələ qaz və tüstü mərhələsi, ikinci isə yeddi göy mərhələsi. Yerin yaradılışı da həmin şəkildə olmuşdur. Birinci mərhələ qaz və maye halı, ikinci mərhələ isə qəlizləşmiş, bərkimiş mərhələsi



3. Ustad Məkarim Şirazi Ə`raf (54), Fussilət (9-12) surələrinə və elmi kəşflərə nəzərən yaradılışın ehtimal olunan altı mərhələsini belə izah edir:

Birinci: Kainatın qaza oxşar kütlə şəklində olması mərhələsi.

İkinci: Ondan böyük kütlələrin ayrılıb mərkəzi kütlənin ətrafına fırlandığı mərhələ.

Üçüncü: Günəş sisteminin yarandığı mərhələ.

Dördüncü: Yerin soyuq və yaşam üçün əlverişli vəziyyətə gəlməsi mərhələsi.

Beşinci: Yerdə bitkilərin və ağacların yaranması mərhələsi.

Altıncı: Yer üzündə insan və heyvanların yaranması mərhələsi.

O, Fussilət surəsinin 9-12-ci ayələrini izah edərkən bir neçə məqamı önə çəkir:

a) “يوم” [yəvm] (gün) sözünün digər mənalarda - mövsüm, mərhələ mənasında işlənməsi geniş yayılmış haldır;

b) “ثم” [summə] (sonra) ifadəsi ehtimal ki, Yerin yaradılışının göylərin və göy cisimlərinin yaradılmasından sonra baş verdiyinə işarədir.

“ثم” [summə] (sonra) ifadəsi adətən zaman haqqında, bəzən isə bəyan haqqında (sadəcə söhbətdə birinci cümlənin ikinci cümlədən sonra gəldiyini bildirir) işlənir. Əgər birinci mənada işlənərsə, bu, göylərin yaradılışının Yerin yaradılışından sonra baş verməsi deməkdir. Lakin ikinci mənada işlənərsə, göylərin yaradılışının Yerdən qabaq baş verməsinin düşünülməsi maneəsizdir. Yəni sadəcə bunları bəyan edərkən (insanların diqqət mərkəzində olduqları üçün) öncə Yerin yaradılmasından, sonra isə göylərin yaradılışından söhbət açır.

İkinci məna elmi kəşflərlə ahəngdar olması ilə yanaşı, Quranın digər ayələri ilə də uyğundur. Buna dəlil olaraq Naziat surəsinin 27-33-cü ayələrini göstərmək olar. Burada Yerin yaradılması ilə bağlı məsələlərin göylərin yaradılışından sonra baş verdiyi göstərilir

4. Doktor Maurice Bucaille yaradılışın altı mərhələsi haqqında yazır:

# YARADILIŞIN MƏRHƏLƏLƏRİ

"Tövratda söhbət adi altı gündən gedir. Yeddinci gün isə (şənbə) Allah istirahət etdi. Bu gündən məqsəd iki günçıxanla iki günbatan arasındakı zaman fasiləsidir. Quranda "يوم" (yəvm) sözü işlənmiş, lakin mövsüm, mərhələ mənasını ifadə etmişdir. Yeddinci gün dedikdə isə məqsəd istirahət deyil. Bu məqam Quranın elmi möcüzələrindəndir".

O, Əraf (54) və Fussilət (9-12) surələrinin məlum ayələrini izah edərkən müasir elmin yaradılışın mərhələləri haqqındakı ehtimalları ilə bağlı yazır:

"Müasir elmə görə Kainat ağır tərpənişli qaz kütləsindən təşkil olunmuşdur. Onun əsas tərkibi hidrogendən, digər hissəsi isə heliumdan ibarət idi. Sonra bu buluda bənzər qaz kütləsi (dumanlığı) çoxsaylı parçalara ayrıldı. Həmin qaz kütləsi sonradan qalaktikalar şəklini aldı... (Yaranan) sıxlıqlar, təkanlar, cazibə qüvvəsi reaksiyaların (atomistik istiliyin) yaranmasına səbəb oldu. Sadə atom zərrəciklərindən ağır (elektrik yüklü) atomlar törədi. Hidrogen heliuma, karbon oksigenə çevrildi, nəticədə metal və metalaoxşar elementlər meydana gəldi". Onun gəldiyi qənaətə görə yaradılış ümumilikdə iki mərhələdə baş vermişdir:

a) Hərəkətdə olan sıx qaz yığını (kütləsi);

b) Onun böyük hissələrə (Günəş, Yer və digər planetlərə) parçalanması.

5. Müasir tədqiqatçılardan biri dünyanın yaradılışını bir neçə ad altında incələyir və Quran ayələrinə tətbiq edir. Biz onun yazısını ixtisarla diqqətinizə çatdırırıq:

### a) Kainatın yaradılışı;

O, Hud surəsinin 7-ci (Göyləri və Yeri altı gündə yaradan Odur) ayəsini qeyd edərək yazır:

"Başlanğıcda zülmət qaranlıq bütün aləmi bürümüşdü. Uca Tanrıdan başqa heç nə və heç kim yox idi . Bu zaman Allah iki mərhələdə yeddi göyün yaranmasını əmr etdi".

Sonra Kainatın ilkin materiyasının nə olduğunun məlum olmadığını açıqlayır və bildirir ki, bunu Kəhf surəsinin 51-ci ayəsi və bəzi elmi teoremlər də təsdiq edir. Qurana və alimlərə görə bəlli olan yaradılışın başlanğıcında hərəkətli tüstü və qaz hissəcikləri mövcud olmuşdur. Lakin bu hissəciklər nadir hallarda bir-birinə toxunacaq dərəcədə səpələnmişlər

Sonda belə bir nəticə alır:

"Allah iki mərhələdə bu qazlardan yeddi göyü yaratdı (Fussilət, 11). (Gözə) görünməz sütunlar vasitəsi ilə (hansı ki, müasir elmdə Ümumdünya Cazibə Qanunu adlanır) planetləri möhkəmlətdi (Loğman, 10).

### b) Ulduzların yaradılışı;

O, Saffat surəsinin 6-cı ayəsini (Biz (sizə) ən yaxın olan göy üzünü (dünya səmasını) ulduzlarla bəzədik) izah edərkən yazır:

"Beləcə milyonlarla qaz və tüstü (toz) hissəcikləri iri həcmli buludlar şəklində bir-birinin ətrafına fırlanmağa başladılar. Bulud yığınları zərrəcikləri mərkəzə doğru cəzb edirdilər. Nəticədə kütləvi bulud yığınları əmələ gəlir və onların hissəcikləri bir-birinə yaxınlaşırdı. Məlum hissəciklərin bir-birinə sürtünməsi, toqquşması nəticəsində istilik (elektrik, enerji) yaranırdı. Bəzən mərkəzdə istilik elə şiddətlənirdi ki, bulud yığınlarını şaxımağa (işıq saçmağa) vadar edir, zülmətə qərq olmuş boşluğu işıqlandırırdı. Sonda milyonlarla bulud yığını ulduzlar şəklini aldı və aşağı səmanı (göyü) işıqlandırdı (Əlbəttə, bütün ulduzlar bir anda yaranmamışlar).

### c) Günəşin yaradılışı;

Bu fırtınalı dərya (tüstü və qaz) arasında, materiyanın hərəkəti nəticəsində spiralvari bir zolaq əmələ gəldi. Bu spiralvari zolaq Ağ yol qalaktikası adlanır (bütün göyü qurşayan açıq gümüşü zolaq) . Günəş və Yer onun bir tərəfində (budağında) özünə yer almışdır (Nuh, 16).

Ağ yol qalaktikasının bu hissəsində fırtına qopur və qazlardan yaranan cərəyan onları hərəkətə gətirirdi. Onlar fırlandıqca geniş spiralvari, qıvrım şəkil aldı və işıqlı parçalar onun ətrafında hərəkətə başladı. Həmin nəhəng qıvrım forma fırlandıqca tədricən qaz topaları (dumanlıqları) mərkəzə doğru cəzb oldu. Orada nəhəng şar (yumaq) işıqlı, parlaq yığınlar şəklini aldı. Nəhayət, bu parlaq şar (yumaq) Günəşə çevrildi.

2) Yer və Günəş sisteminin yaradılışı Günəşin ətrafını (işıq dairəsi şəklində) bürüyən qaz və toz topaları parçalandı və hər bir parça girdab (burulğan) şəklini aldı. Hər bir burulğanın özünəməxsus yolu (kursu), hərəkət çevrəsi var idi və həmin kurs üzrə Günəşin ətrafına fırlanırdı. Günəşə yaxın burulğanlarda istilik, uzaq burulğanlarda isə soyuq hökm sürürdü. Bəzi qaz zərrəciklərindən buxar törəyir və şeh kimi toz zərrəciklərinin üzərinə qonurdu. Toz zərrəcikləri bir-birinə dəydikdə şeh onları bir-birinə yapışdırırdı. Bəzənsə bərkimiş, qəlizləşmiş (buzlaşmış) su və gil şəklini alırdılar. Cazibə qüvvəsi bu parçaları bir-birinə doğru çəkirdi. Onlar böyüyür və nəhəng, fırlanan şar (yumaq) əmələ gətirirdi. Nəhayət, məlum şar (yumaq) "Yerə" çevrilirdi. Sonra digər planetlər (Merkuri, Venera, Mars, Yupiter, Saturn, Uran Nepton, Pluton) bu burulğanlardan əmələ gəldi. Hər bir planet Günəş ətrafında dövr etməyə başladı.

### ç) Yerin taleyi;

Yer formalaşır və quru, çılpaq daşlardan ibarət şar (yumaq) şəklində nəzərə çarpırdı (Bu zaman orada nə yaşam, nə hava, nə də bulud vardır). Əsrlər öncə onda dəfn olunan buxar və digər qazlar gil (çöküntü süxuru) yığınları ilə birgə daşlar altında qalaqlanmış məxsus atomların parçalanması nəticəsində istilik (enerji) yaradır. Yerin təki isinir, onun dərinliklərində daşlar elə qızır ki, əriməyə başlayır və qaz köpüklənərək qaynayır, yanardağlardan (vulkan) püskürərək yer üzünə axır.

Qazlar da yanar dağlardan xaric olur. Yerin dörd bir yanına yayılır və onun üzərinə hava örtüyü çəkirlər. Buxar soyuyur, buludlar zənginləşir və ilk yağışlar yağmağa başlayır. Milyon illər beləcə yağış yağır və Yerin dərinliklərinə hopur. Quran bu haqda buyurur:

“Biz göydən lazımi qədər yağmur endirdik və onu Yerdə (dənizdə, çayda, göllərdə və quyularda) saxladıq

d) Yer üzündə yaşam (bu haqda ayrıca bir fəsildə söhbət açacağıq).

6. Doktor Paknijad “İslam və biologiya” adı altında yaradılışın və Yerdə yaşamın başlanmasının elm, Quran və hədislərə nəzərən geniş izahını verir və onu bir film kimi olduqca maraqlı şəkildə canlandırır .

O, öncə Hud surəsinin 6-cı ayəsini qeyd edərək üç sözü “ايام” [əyyam], “عرش” [ərş] və “ما” [ma] sözlərini izah edir və bildirir ki, “ايام” [əyyam] mərhələlər, mövsümlər mənasını ifadə edir.

O, əsərin digər bir hissəsində yazır:

“Bioloqlar bir çox məsələlərdə fərqli, ziddiyyətli fikirlər irəli sürmüşlər. Yaradılışın mərhələli təkamülü və s. bəzi məsələlərdə isə yekdil rəyə gəlmişlər. Bu mərhələlər aşağıdakı şəkildə sıralanmışdır:

Qaz-toz dumanlıqlarından (kütləsindən) sıra ilə kəhkəşanlar, Günəş sistemi və Yer yarandı. Öncə Yer əridilmiş şəkildə idi, sonra soyudu. O zaman yalnız cansız təbiət mövcud idi. Sonra su yarandı. Ardıcıl olaraq ilkin molekullar, bitkilər, heyvanlar, sürünənlər, məməlilər ərsəyə gəldilər.

7. Doktor Həmid ən-Nəcdi Fussilət surəsinin 9-11-ci ayələri haqqında yazır:

“Öncə alimlər Yer və göylərin eyni (kimyəvi) tərkibdən təşkil olunduğunu düşünürdülər. Lakin yeni elmi nailiyyətlər göstərir ki, Yer və digər planetlərin kimyəvi tərkibi fərqlidir. Yəni ulduzların 29%-i hidrogendən təşkil olunmuşdur. Lakin Yer ünsürlərdən, metallardan (təqribən yüz ünsür) təşkil olunmuşdur. Onların qənaətinə görə Yer və göylərin mənşəyi bir olsa da, öncə Yer, sonra isə ulduzlar yaranmışdır. Məlum ayələr də öncə Yerin, sonra isə göyün yaradıldığına işarə vurur”

8. Bu haqda digər alimlər də söhbət açmışlar. Bunlardan Hənəfi Əhməd və Ədb əl-Mun`imin adını çəkmək olar.

**YEKUN**

Dəyərli təfsirçi alimlərin Yer və göylərin yaradılışının mərhələləri haqqında qeydlərində bir neçə məqama diqqət yetirmək zəruridir.

1. Ayələrdə Yer, göylər və onların arasındakı digər mövcudatın altı mərhələdə yaradıldığı göstərilir. İki mərhələdə göylərin yaradılışı baş vermişdir. İki mərhələdə Yerin yaradılışı baş vermişdir. Növbəti iki mərhələdə isə Yer və göy arasında olanların yaradılışı baş vermişdir. Quran bu haqda ümumi işarələr vurmuş, təfərrüata (mərhələlərin zaman fasiləsi və s.) varmamışdır.

2. Tədricən baş verən şeylər haqqında mərhələli zaman təyin etmək mümkündür. Bu, şərti və nisbidir. Buna görə də müəyyən sabit bir mövzu ilə bağlı (misal üçün, bəşər elminin keçdiyi inkişaf yolu, incəsənətin yaranması və formalaşması və s.) fərqli mərhələli zaman haqqında danışmaq olar. Lakin bu fərqli bölgülər məsələyə hər biri bir ayrı baxımdan yanaşır. Bəzən bu bölgülər doğru və zəruridir. Onlar məsələnin qaranlıq tərəflərini aydınlaşdırırlar. Yaradılışın mərhələləri də belədir. Yəni Yer və göylərin yaradılış mərhələləri fərqli yönlərdən fərqli şəkildə bölünə bilər. Elmi nəzəriyyələrdə yaradılışın mərhələləri ilə bağlı fikir ayrılığının kökündə də bu dayanır.

Deməli, kosmologiya, biologiya və geologiya elmlərində yaradılışın mərhələləri Quran və ya müqəddəs kitabla fərqli şəkildə izah edilə bilər. Bu növ bölgülərin fərqliliyi elm və dinin ziddiyyəti demək deyil. Çünki hər bir bölgü məsələyə ayrı bir yöndən yanaşmışdır. Bu bir çox hallarda doğru və zəruridir. Başqa sözlə desək, dinlə elmin dili bu növ məsələlərdə fərqlidir.

3. Öncə də qeyd olunduğu kimi “سموات وارض” [səmavat və ərz] sözləri Quranda müxtəlif mənalarda işlənmişdir. Ola bilər ki, yaradılışın mərhələləri ilə bağlı ayələrin hamısı bizim başa düşdüyümüz maddi göy və Yerə aid olmasın. Bir çox ayələrdə (Səcdə, 4-5) göy və Yerdən məqsədin mənəvi, metafizik anlayışlar, üstün və alçaq dərəcələr olması ehtimalı böyükdür. Bəzi təfsirçilər bu ehtimala üstünlük vermişlər.

4. Quranın, mövcud Tövratın, yunan filosoflarının və müasir (təcrübi) elmlərin yaradılışın mərhələləri ilə bağlı irəli sürdüyü fikirləri müqayisə etdikdə Quranın önə çəkdiyi məsələlərin müasir elmin kəşfləri ilə uyğun gəldiyinin şahidi oluruq. Halbuki Tövratın və yunan filosoflarının fikirlərində bu adekvatlıq görünmür. Bu, Quranın əzəmətinin, sədaqətinin göstəricisidir. Hansı ki, hər bir oxucunu heyrətə salır.

Lakin bütün bunlar Quranın elmi ecazkarlığını sübuta yetirmir. Çünki yaradılışın ümumilikdə altı mərhələni keçməsi Qurandan öncə Tövratda da öz əksini tapmışdır. Təbii ki, o dönəmdə ərəblər yəhudilərlə birgə yaşayırdılar və onlar (Tövratda verilən bu bilgidən) xəbərdar idilər (Baxmayaraq ki, Quranda yeddinci gün — istirahət günü qeyd olunmamışdır).

5. Quranda Yer və göylərin yaradılışı haqqında ümumi və qısa məlumat verilmişdir. Buna görə də onu bu və ya digər elmi nəzəriyyələrə qəti tətbiq etmək doğru olmazdı. Lakin əgər tüstüdən məqsədin qaz-toz dumanlıqları olmasını bir ehtimal kimi önə çəksək, bu daha doğru olar.

6. Ayətullah Məkarim Şirazinin qeyd etdiyi mərhələlər yaradılışın mərhələlərindən söhbət açan ayələrlə uyğun gəlmir. Çünki onun öz nəzərinə görə birinci və ikinci mərhələ göylərin yaradılışına, üçüncü və dördüncü mərhələ Yerin yaradılışına, beşinci və altıncı mərhələ Fussilət surəsinin 10-cu ayəsində göstərildiyi kimi dağların, mədənlərin və qida maddələrinin yaradılışına aid olmuşdur. Bu mərhələlərdə heyvanların və insanın yaradılışından söhbət getməmişdir. Halbuki o, altıncı mərhələni heyvanların və insanın yaradılışı ilə bağlayır. Bu fikir Tövratda qeyd olunan mərhələlərə daha uyğun gəlir.

**Qeyd**: Ehtimal ki, Yer və göylərin yaradılışı altı mərhələdə, insanın yaradılışı isə ondan sonra gerçəkləşmişdir. Buna görə də Quranda məlum altı mərhələdə insanın yaradılışından söhbət açılmamışdır. Deməli, Allah Yerin yaradılışı sona yetdikdən sonra insanı torpaqdan yaratmışdır (Səcdə, 8-9), sonra isə bunu mələklərə də bildirdi (Bəqərə, 30).

7. Doktor Biazar Şirazinin qeydləri haqqında deməliyik ki, birincisi, onun sözlərindən anlaşıldığına görə Günəş ayrıca bir mərhələdə yaradılmışdır. Halbuki Quran göylərin yaradılmasını iki mərhələdə qeyd etmişdir ki, Günəşin yaradılışı da həmin iki mərhələyə daxildir. İkincisi, o, elmi nəzəriyyələri Qurana tətbiq edərkən bunun yalnız bir ehtimal olduğunu bildirməliydi. Çünki elm və Qurana məlum bölgülərin əsası eyni olmaya bilər və ya gələcəkdə elmi bölgü dəyişə bilər.

8. Doktor Paknijadın fikirlərinə gəlincə bildirməliyik ki, o, yaradılışın metafizik mərhələsini izah edərkən hədislərə əsaslanmışdır. Bu bizim mübahisə obyektimizə yaddır. Çünki burada haqqında danışdığımız mövzu Kainatın maddi yaradılışıdır. Bunun altı günə heç bir aidiyyəti yoxdur.

Ustad Ənsariyan

# «HƏŞR» SURƏSİ



**«HƏŞR» İXRAC, ÇÖLƏ ÇIXARMAQ MƏ'NASINDADIR**

**Surənin mətni haqqında:** «Həşr» çölə çıxarmaq mənasındadır. Amma burada bir nəfəri yox, bütöv bir cəmiyyəti ixrac etmək nəzərdə tutulur. Bu sözün digər bir mənası toplanmadır.

**Ayədə insanların qiyamətdə toplanması nəzərdə tutulur.**

Surədə Mədinədən kənarda yaşayan Bəni-Nəzir yəhudiləri haqqında danışılır. Bəni-Nəzir və digər iki yəhudi tayfası Mədinə ətrafında yaşayırdı. Onlar həzrət Peyğəmbərlə əhd-peyman bağlamışdılar. Onlar bir müddət bu müqaviləyə hörmətlə yanaşsalar da, sonradan onu pozdular. Onlar həzrət Peyğəmbərin gəlişi zamanı ona qəsd etmək fikrinə düşmüşdülər. Bu vaxt Cəbrail nazil oldu və onların planlarını həzrətə açıqladı. Həzrət birbaşa Mədinəyə qayıtdı və onlara elan etdi ki, Allah-təala sizin qurğunuzdan məni xəbərdar etdi. Onlara bildirildi ki, ya sakin olduqları yerdən köçsünlər, ya da müharibəyə hazırlaşsınlar. Onlar bildirdilər ki, yaşadıqları ərazidən çıxırlar. Amma Mədinə münafiqlərindən olan Abdullah ibn Ubəy onlara xəbər göndərdi ki, ərazini tərk etməsinlər və Peyğəmbərlə savaşa hazırlaşsınlar. Onlara və'd olundu ki, müharibəyə başlayacaqları təqdirdə Abdullah ibn Ubəy öz qövmü ilə onlara kömək edəcəkdir.

Bu vəd Bəni-Nəzir qəbiləsini çox sevindirdi. Onlar qərara gəldilər ki, döyüşə hazırlaşsınlar. Onlar müdafiə qalalarını möhkəmləndirərək, döyüşə hazırlaşmağa başladılar. Həzrət Peyğəmbərə xəbər göndərdilər ki, heç bir vəchlə öz ərazilərini tərk etməyəcəklər. Həzrət Peyğəmbər bu xəbəri eşidib, təkbir dedi, səhabələr də onun səsinə səs verdilər. Həzrət Peyğəmbər Həzrət Əliyə göstəriş verdi ki, qoşunla onlara doğru hərəkətə başlasın. Əli (ə) döyüş bayrağını götürüb yola düşdü. Həzrət Peyğəmbər onların qalasını mühasirəyə aldı. Münafiqlər yəhudilərə köməyə gəlmədilər və yəhudilər aldadılmış vəziyyətdə qaldılar.

Həzrət Peyğəmbər onların qalalarını dalbadal uçurdu. Çarəsiz qalan yəhudilər dedilər: «Ey Məhəmməd, biz bu yerdən köçməyə hazırıq bir şərtlə ki, var-dövlətimizi bizə verəsən.»

Həzrət bu təklifi qəbul etməyib buyurdu: «Siz buradakı var-dövlətdən dəvəniz götürən qədər apara bilərsiniz.» Yəhudilər bu təklifi qəbul etməyib, bir neçə gün yubandılar. Sonra dedilər: «Biz dəvəmizin götürəcəyi yükü aparmağa razıyıq.» Amma həzrət qəbul etmədi və buyurdu: «Heç nə götürmədən gedə bilərsiniz.» Özü ilə icazəsiz bir şey aparanlar qətlə yetiriləcəkləri ilə hədələndilər. Yəhudilər həmən yerdən çıxıb bir neçə qrup halında başqa diyarlara köçdülər. Yəhudilərlə döyüşdə ələ keçrilmiş qənimət mühacirlər arasında bölündü. Ənsar isar göstərərək bu qənimətdən pay götürmədi. Bu nankor və əhdə vəfasız qövmün məğlubiyyətindən sonra ayələr nazil oldu: «Kitab əhlindən kafir olanları ilk dəfə toplayıb öz yurdundan çıxaran Odur. Siz onların çıxacaqlarını güman etmirdiniz. Onlar isə öz qalalarının onları Allahın əzabından qoruyacağını zənn edirdilər. Allahın əzabı onlara gözləmədikləri yerdən gəlib ürəklərinə qorxu saldı. Belə ki, onlar evlərini həm öz əlləri, həm də mö'minlərin əlləri ilə uçurub dağıdırdılar. Ey bəsirət sahibləri, ibrət alın.» Bəni-Nəzir yəhudilərinin bu hala düşməsinin səbəbləri 3, 4-cü ayələrdə belə açıqlanır: «Əgər Allah onlara sürgün olmağı hökm etməsəydi, onları dünyada mütəq əzaba düçar edərdi. Axirətdə isə onları cəhənnəm əzabı gözləyir; Bu onların Allaha və onun Rəsuluna asi olmalarına görədir. Kim Allaha asi olsa, Allahın cəzası çox şiddətlidir.»

**Surənin fəziləti haqqında:**

1-Həzrət Sadiq (ə) buyurdu: Gecələr Rəhman və Həşr surəsini oxuyan kəsin evinə sübhə qədər gözətçilik etmək üçün əlində siyirmə qılıncı olan bir mələk göndərər.

2-Allahın Rəsulu (s) buyurdu: Həşr surəsini oxuyan kəsə, Behişt, Cəhənnəm, ərş, kürsü, hucub, göyün yeddi təbəqəsi, yerin yeddi qatı, hava, küləklər, quşlar, ağaclar, dağlar, günəş, ay, mələklər, salam göndərər və onun üçün bağışlanmaq tələb edərlər. Əgər o həmin gün və yaxud gecə ölsə, şəhid kimi dünyadan getmişdir.

Nəbiyyi-Əkrəm (s) buyurdu: Allahın əzəmətli adları Həşr surəsinin altı sonuncu ayəsindədir. Və həmçinin Həzrət buyurdu: Hər kəs Həşr surəsinin sonuncu ayələrini gecə yaxud gündüz oxusa və həmin gün və yaxud gecə ölsə, Allah-taala onu Behiştə aparar.

İmam Cəfər Sadiqdən (ə) nəql olunub ki, hər kəs bu surəni çətinliklərin aradan qaldırılmasına və hacətlərinin qəbul olunmasına xatir qırx gün və hər gündə bir dəfə oxusa, hacəti tezliklə verilər və duaları qəbul olunar,

Peyğəmbər Əkrəm (s) Əliyə (ə) buyurdu: Ya Əli: Hər gecə Həşr surəsini oxu ki, dünya və axirət şərri səndən dəf olar.

Allahın Rəsulu (s) buyurdu: Cəbraildən Allahın əzəmətli adları barədə soruşdum. O dedi: Həşr surəsinin sonunu oxu. İkinci və üçüncü dəfə Allahın əzəmətli adları haqqında soruşdum, o yenə də həmin sözü dedi.

Məqəl ibn Yəsar bir hədisdə deyir: Hər kəs sübh desə: "Əuzu billahi əssəmil əlim minəl-şəytanir-rəcim." və Həşr surəsinin sonuncu ayələrini (ləv ənzəlna hazəl Qur`anə….. 21-24) oxusa, Allah taala bütün bəlalardan qorunmaq üçün yetmiş min mələyi ona müvəkkəl edər və onlar gecəyə qədər ona salavat göndərərlər. Əgər o həmin gün ölsə, şəhid kimi ölmüşdür və Qiyamətdə mö`minlərin hamısı ona şəfaətçi olarlar. Bu surənin sonuncu ayələri hər bir əlacsız dərdə dərmandır.

Bu surəni xalis niyyətlə xəstəyə oxusanız inşallah şəfa bağışlayar.

Deyirlər ki, bu ayəni çərşənbə günü yetmiş dəfə oxusa, elm və qələm əhlinə qələbə çalar, bağlı qapılar açılar və hacətləri qəbul olunar.

"Huvəllahul-ləzi la ilahə illa zuvə, alimul ğəybi vəşşəhadəti, huvər-rəhmanur-rəhim." (Həşr-22) və həmçinin mühüm işlərə xatir bu ayəni səksən dəfə oxusa çox faydalı olar.





# KƏBƏ

## TÖVHİD ƏHLİ ÜÇÜN TİKİLƏN İLK EVDİR

*"Şübhəsiz, insanlar(ın ibadəti) üçün (təməli) qoyulmuş ilk ev, həmin Bəkkədəkilər (Məkkə şəhərindəkidir) ki, (o,) xeyir və bərəkət dolu və aləmdəkilər üçün hidayət vasitəsidir" ("Ali İmran" surəsi, ayə 96).*

Əhli-beyt imamlarından (ə) gələn rəvayətlərdə deyilir ki, bu ev Adəmin (ə) vasitəsilə tikilmişdir. Sonra Nuhun (ə) tufanı nəticəsində dağılmış və İbrahim (ə) Allahın göstərişi ilə onu yenidən bərpa etmişdir. Belə ki, İbrahim (ə) Allahın fərmanı ilə həyat yoldaşı Hacəri və oğlu İsmayılı Məkkəyə tərəf aparıb Allahın evinin yerləşdiyi yerdə qoyur. Elə bir yerdə ki, nə suyu var idi, nə də ki otu. Lakin nə etməli fərman İlahi bir fərman, məqam da imtahan məqamı idi. İbrahim (ə) öz əziz övladı və həyat yoldaşı Hacəri o biyabanda qoyub geri dönür. Bu zaman bu qocaman ata geri dönüb kövrək baxışlarla öz ailəsini seyr edir. Böyük bir iman və Allaha təvəkkül ilə üzünü səmaya tərəf tutub əllərini göyə qaldırır və belə dua edir. **"...İbrahim dedi: "Ey Rəbbim, buranı (bu diyarı) təhlükəsiz və əmin-amanlığı olan bir şəhər et və onun əhalisinə - Allaha və axirət gününə iman gətirənlərə - hər növ meyvə və məhsullardan ruzi ver..."** ("Bəqərə" surəsi, ayə 126)

İbrahim (ə) geri dönür. Çox keçmir ki, susuzluq onlara güc gəlir. Hacər İsmayılı aclıq və susuzluğun əzabından xilas etmək üçün yeddi dəfə Səfa və Mərvə dağları arasında su ümidi ilə pərişan halda qaçır və sonunda ümidsiz halda geri dönür. Allahın lütfü ilə İsmayılın ayağı altından saf və şəffaf bir bulaq qaynamağa başlayır. Ana ilə övladı o sudan içib sirab oldular. Yaxınlıqda "Curhəm" qəbiləsi yaşayırdı. Onlar Hacər ilə İsmayıla öz aralarında yer verdilər və beləliklə, İsmayıl cavanlıq yaşına çatdı. Bu zaman Allah İbrahimə əmr etdi ki, Məkkəyə qayıtsın, orada övladının köməyi ilə Allah evini (Kəbəni) yenidən tiksin. Quran bu barədə belə buyurur:

**"Və, (yada sal) o zaman(ı) ki, İbrahim üçün (Kəbənin sütunlarını Adəmin qoyduğu təməl üzərində qaldırsın deyə) Kəbə evinin yerini hazırladıq (və ona dedik) ki: "(Bu evin həcc mərasimində) heç nəyi Mənə şərik qoşma və mənim evimi təvaf edənlər, (ibadətə) duranlar və ruku və səcdə edənlər üçün təmizlə!"** ("Həcc" surəsi, ayə 26)

**"Və (yada sal) o zaman(ı) ki, İbrahim və İsmayıl evin (Kəbənin) təməlini ucaldırdılar (və deyirdilər): "Ey Rəbbimiz, (bu əməli) bizdən qəbul et ki, həqiqətən, eşidən və bilən Sənsən!"** ("Bəqərə" surəsi, ayə 127)

İbrahim (ə) İsmayıl (ə) ilə birlikdə Kəbəni tikərkən Allah ilə bu məzmunda razu-niyaz edir:

**"Ey Rəbbimiz, bizi Özünə (əmrlərinə) təslim et, övladlarımızdan da Sənə təslim olan ümmət (yarat), ..."**

**"Ey Rəbbimiz onların arasına oxuyan, kitab və hikmət öyrədən və onları paklaşdıran bir Peyğəmbər seçib göndər. Çünki yenilməz qüdrət və hikmət sahibi Sənsən!"** ("Bəqərə" surəsi, ayə 128-129)

Beləliklə, Kəbə evi İbrahimin (ə) əli ilə ziyarət məkanına çevrilir. Bu müqəddəs bina tovhid nidasını ucaltmaq üçün bərpa olunmasına baxmayaraq, zaman keçdikcə din təhrifə uğrayır və bütpərəstlik əqidəsi bu məkana da yol tapır. Buna baxmayaraq, Kəbə yarandığı gündən hər zaman öz müqəddəsliyini qoruyub saxlaya bilmişdir. Ora hətta bütpərəstlərin də ibadət və and yerinə çevrilmişdir. Onlar öz böyük və güclü sandıqları bütlərini Kəbə evinin içində qoruyub saxlayırdılar.

Məkkə tarixinə nəzər saldıqda əziz Peyğəmbərimiz Muhəmmədin (s) müvəhhid (Allahın təkliyinə inanan) babalarının əvəzsiz xidmətləri nəzərə çarpır. Bu mərd insanlar cəmiyyəti bürüyən nadanlıq, fəsad, bütpərəstlik və qeyri-insani əxlaqın çirkinliklərinə bulaşmamış, İbrahimdən (ə) Muhəmmədə (s) qədər öz paklıqlarını qoruyub saxlamışlar. Onlar sanki Həzrəti İbrahimin (ə) əlindəki tovhid bayrağını bir-birilərinə ötürərək yer üzünün sonuncu Peyğəmbərinə vermişlər. Onlardan məsələn, Qusey - Peyğəmbərin (s) dördüncü babası öz istedadı ilə qısa bir müddət ərzində ali vəzifələri və Məkkənin hakimiyyətini əldə etmiş Kəbənin açarlarını saxlamaq şərəfinə nail olmuşdur. O, camaatı Kəbənin kənarında evlər tikməyə təşviq edirdi. Ölümündən sonra Kəbənin himayəsi və "Darun-nudvənin" rəisliyi oğlu Əbdud-darın övladlarının, hacıları su ilə təmin edib qonaqları qarşılamaq isə Əbdulmənafın övladlarının öhdəsində olur. Bu bölgü İslamın zühurunadək dəyişməz qalır.



## Fil hadisəsi

Miladın 570-ci ilində Kəbənin tarixində böyük bir hadisə baş verir. Bu hadisənin əzəmətinə görə ərəblər tarixlərini həmin ildən hesablamağa başlayırlar. Qeyd olunmalıdır ki, İslam Peyğəmbərinin (s) təvəllüdü də həmin ilə təsadüf edir. Bu ili ərəblər fil ili adlandırmışlar. Səbəbi isə onunla əlaqədadır ki, Yəmən hakimi həmin il Kəbəni dağıtmaq qəsdi ilə döyüş fillərinin olduğu böyük bir ordunu Məkkə üzərinə yeridir. Ərəb qəbilələrinin başçıları vəziyyəti təhlükəli görüb ərəb millətinin şəxsiyyət və istiqlalını süqutun astanasında zənn etdilər. Əbrəhənin yolu üzərində yerləşən qəbilələr ona qarşı qəhrəmanlıqla mübarizə aparsalar da nəticədə məğlub oldular. Ordu Məkkə yaxınlığında dayanaraq orada düşərgə salır. Əbrəhə göstəriş verir ki, Təhamənin dəvələri və mal-qarasını qarət etsinlər. Qarət olunan dəvələrin içində Peyğəmbərin (s) babası Əbdül Muttəlibin də iki yüz dəvəsi var idi.

Əbrəhə Məkkə əhlinə belə bir xəbər göndərir ki, məqsədimiz Kəbəni dağıtmaqdır. Əgər siz müqavimət göstərməsəniz, amanda qalacaqsınız. Əbdül Mutəllib bildirir ki, müdafiəyə qalxmayacaqlar... Kəbəyə gəlincə isə, o, Allahın evidir. Allah nəyi məsləhət bilsə onu da edəcək.

Əbrəhənin nümayəndəsinin dəvətilə Əbdül Muttəlib oğulları ilə birlikdə Əbrəhə ilə görüşür. Onun əzəməti, vüqar və mətanəti Əbrəhədə elə dərin təəssürat yaradır ki, ixtiyarsız olaraq taxtından qalxıb onun əlindən tutur və yanında əyləşdirir. Tərcüməçi vasitəsilə ehtiramla ondan hansı məqsədlə gəldiyini soruşur. Əbdül-Muttəlib Təhamənin və özünün qəsb olunmuş 200 dəvəsinin geri qaytarmasını istəyir.

Əbrəhə gözləyirdi ki, Əbdül Muttəlib ondan Kəbəyə toxunmamağı xahiş edəcək. Ona görə də bu sözləri eşitdikdə çox təəccüblənərək iradını bildirir. Əbdül Muttəlib deyir: "Mən dəvələrin sahibiyəm, evin də öz sahibi var. Onu hər cür təcavüzdən qoruyar".

Bu sözləri eşidən Əbrəhə məğrur tərzdə onu hədəfindən yayındıra biləcək bir qüvvənin olmadığını bildirir. Sonra qarət olunmuş malları sahiblərinə qaytarmaq göstərişini verir.

Məkkə əhalisi hücumdan amanda qalmaq üçün dərələrə və dağlara çəkilir. Gecə ikən Əbdül Muttəlib Qureyşdən bir neçə nəfərlə birlikdə özünü Kəbəyə çatdırır. Kəbənin həlqəsindən tutaraq bir neçə beyt ilə Rəbbi ilə söhbət edir:

"İlahi! Onların şərrindən qorunmaq üçün Səndən başqasına ümid yoxdur! Ey Yaradan! Onları öz evindən uzaqlaşdır. Kəbənin düşməni Sənə düşmən olan kəsdir. Pərvərdigara! Sənin bəndən öz evini müdafiə edir, Sən də öz evini müdafiə et".

Sonra o, dağa çəkilərək hadisələrin necə cərəyan edəcəyini müşahidə etməyə başladı.

Səhər Əbrəhənin qoşunu Məkkəyə tərəf hərəkət etməyə hazırlaşarkən gözlənilmədən dəstələrlə quş göründü. Hər biri dimdik və caynaqlarında kiçik daşlar daşıyırdı. Quşların kölgəsi qoşunun səmasını qaranlığa qərq etdi. Onlar öz kiçik silahları ilə Allah evini viran etmək istəyən qoşunu daş-qalaq etdilər. O daşlardan biri də Əbrəhənin başını yaralayır. Vəziyyətin ağır olduğunu görən Əbrəhə geri çəkilməyə məcbur olur və yolda aldığı yaranın təsirindən həlak olur. Beləliklə, Allah öz evini düşmən şərrindən xilas edir.

## Kəbənin təmiri

Kəbə tarixində mühüm hadisələrdən biri də onun təmiridir. Bu hadisə İslamın zühurundan əvvəl baş vermişdir. Belə ki, ərəb qəbilələri yığışıb Kəbəni təmir etmək qərarına gəlirlər. Bu mühüm və dəyərli işi onlar böyük müvəffəqiyyətlə başa çatdırırlar. Qara daşı Kəbə divarlarına yerləşdirmə şərəfinə isə Muhəmməd (s) nail olur. O, ümumun razılığı ilə qara daşı Kəbə divarına yerləşdirir.

## Kəbənin övladı

Kəbənin tarixində baş verən qeyri-adi hadisələrdən biri də Əlinin (ə) onun içində dünyaya gəlməsi idi. Bu hadisə belə olmuşdur:

Əbu-Talibin həyat yoldaşı Fatimə binti Əsəd doğum əlamətlərini hiss etdiyi zaman Allah evinə üz tutur. Orada Allaha dua edərək bu doğumu onun üçün asan etməsini diləyir. Elə bu zaman Kəbənin divarları yarılır və xanım içəri daxil olduqdan sonra yenidən bağlanır. Bu hadisənin şahidi olanlar böyük həyəcanla Kəbənin qapısının önündə toplaşıb onu açmağa çalışırlar. Lakin nə qədər cəhd etsələr də, qapı açılmır. Sonunda bu hadisənin İlahi bir hikmətlə bağlı olduğunu anlayıb səbr etmək qərarına gəlirlər. Beləcə üç gün keçir. Nəhayət, üçüncü gün Kəbə divarı yenidən həmin yerdən açılır və qucağında gözəl bir körpəni tutmuş Fatimə çölə çıxır. Allah evində dünyaya gələn bu körpə İslamı öz güclü qolları, elmi və imanı ilə yaşadan Həzrət Əli (ə) idi. O, Allah evində dünyaya gəldi, Allah evində yaşadı və Allah evində də dünyadan getdi (Kufə məscidində).

## Kəbənin qiblə təyin olunması

Peyğəmbər (s) on üç il Məkkədə Beytul-Müqəddəsə doğru namaz qılır. Mədinəyə hicrət etdikdən sonra da bu məsələ olduğu kimi qalır. İlahi göstəriş belə idi ki, müsəlmanlar da yəhudilərin namaz qıldığı qibləyə doğru namaz qılmalıdırlar. Bu iş biri qədim, digəri isə yeni olan iki dinin bir-birinə yaxınlaşması və həmkar olması məqsədini daşıyırdı. Lakin müsəlmanların günü-gündən çoxalıb tərəqqi etməsi yəhudi dairələrində təşvişə səbəb olur. Çünki bu irəliləyiş İslam ayininin qısa bir müddətdə bütün Ərəbistan yarımadasına yayılıb yəhudi ayinini və qüdrətini ortadan qaldıracağının əlaməti idi. Ona görə də yəhudilər əhdi pozub Peyğəmbərə (s) və müsəlmanlara əziyyət verməyə başladılar. Onlar müsəlmanlara irad tutaraq müstəqil qibləyə malik olmadıqlarını tənə ilə vurğulayırdılar. Bu xəbər Peyğəmbərə (s) ağır gəlirdi. Gecələr evindən çıxaraq asimana baxar və bu barədə göstərişin, vəhyin nazil olmasını gözləyərdi. Aşağıdakı ayə həmin bu mətləbə işarə edir:

**"Şübhəsiz, Biz sənin üzünün (bir işin baş verməsini gözləyən adam kimi) göydə o tərəf bu tərəfə çevrilməsini görürük və indi səni razı qalacağın bir qibləyə tərəf döndəririk"** ("Bəqərə" surəsi, ayə 144).

Quran ayələrindən belə aydın olur ki, qiblənin dəyişilməsinin digər bir səbəbi də möminlik iddiası edənlərin öz iddialarında nə qədər səmimi olduğunu üzə çıxarmaq idi. Belə ki, yeni göstərişə əsasən namaz halında Məscidul-Hərama tərəf yönəlmək yeni dinə olan imanın və ixlasın, əmri icra etməkdən boyun qaçırmaq isə ikiüzlülük və nifaqın rəmzi hesab olunurdu.

Bu barədə Quranda belə deyilir:

**"Biz sənin əvvələr üz tutduğun qibləni (Beytül-Müqəddəsi) Peyğəmbərə tabe olan şəxsə görə dönən (və keçmiş qiblədə qalan) şəxsdən ayırd etməkdən (əzəli elmimizi xaricdə gerçəkləşdirməkdən) başqa bir şey üçün təyin etməmişdik"** ("Bəqərə", ayə 143).

Əlbəttə, İslam tarixini mütaliə edib yaradanın vəziyyətini araşdırdıqda başqa səbəbləri də görmək mümkündür.

Belə ki, tovhid qəhrəmanı həzrət İbrahimin (ə) təmir etdiyi Kəbə bütün ərəb cəmiyyətinin təzim mərkəzi idi. Belə bir yerin qiblə olması bütün ərəblərin razılığını cəlb edib onları İslam dinini qəbul etməyə rəğbətləndirəcəkdi. Bundan əlavə tez-tez əhdlərini pozan və hidayətlərinə ümid olmayan yəhudilərdən uzaqlaşmaq lüzumu yaranmışdı. Qiblənin dəyişdirilməsi bu uzaqlaşmanın təzahürlərindən biri idi. Necə ki, Aşura günü tutulan orucun da nəsx olunması (aradan qaldırılması) bu səbəblə əlaqədardır. Belə ki, yəhudilər İslamdan əvvəl Aşura günü oruc tutardılar. Peyğəmbər (s) və müsəlmanlara da həmin gün oruc tutmaq vacib idi. Sonra aşura orucu ləğv olunaraq Ramazan ayının orucu vacib edildi. Bu hadisənin maraqlı cəhətlərindən biri də qiblənin namaz əsnasında dəyişilməsi idi. Peyğəmbər (s) günorta namazının iki rükətini qılmışdı ki, vəhy mələyi nazil olub ona Məscidul-Hərama doğru yönəlmək göstərişini verir. Bəzi rəvayətlərdə də deyilir ki, Cəbrail (ə) Peyğəmbərin (s) əlindən tutub Məscidul-Hərama doğru yönəldir. Məsciddə olanlar da bu işi təkrarlayırlar. O gündən Kəbə müsəlmanların müstəqil qibləsi olur!

## Kəbədən ucalan azan

Hicrətin 8-ci ili uzun illərin ayrılıq və mübarizəsindən sonra vaxtı ilə Məkkəni az saylı müsəlmanlarla tərk etməyə məcbur olan Peyğəmbər (s) on minlik əzəmətli bir ordu ilə göz bəbəyi Kəbə olan bu müqəddəs şəhəri müharibəsiz fəth edir. Uzun illər şirk və bütpərəstliyin əsiri olan bu diyar tovhidin yenilməz ordusu və müsəlmanların təkbir sədası ilə azad olur.

Peyğəmbər (s) onun üçün qurulan xeymədə bir az istirahət etdikdən sonra dəvəsinə süvar olunmuş halda Allah evini ziyarət və təvaf etmək üçün Məscidul-Hərama tərəf hərəkət edir. Mühacir və ənsardan ibarət əzəmətli bir dəstə onu dövrəyə almışdı. Peyğəmbər (s) məsləhətə görə dəvəsindən enmədən Məscidul-Hərama daxil olur. "Həcərul-əsvəd"in qarşısında dayanaraq ona işarə edib təkbir deyir. Ətrafında dayanmış müsəlmanlar da uca səslə təkbir deyirdilər. Məsciddə çox qəribə bir əhval-ruhiyyə və səs-küy yaranır. Peyğəmbər (s) camaatın sakitləşməsi üçün işarə edir. Az keçmir ki, məsciddə tam sakitlik yaranır. Peyğəmbər (s) təvafa başlayır. Birinci dövrədə Kəbənin yuxarısına bərkidilmiş "Hubəl", "Əsaf" və "Nailə" adlı bütləri görən O Həzrət əlindəki nizə ilə onlara möhkəm bir zərbə endirir və yerə salır. Sonra bu ayəni oxuyur:

**Və de: "Haqq gəldi və batil məhv oldu, həqiqətən, batil həmişə məhvə məhkumdur"** ("İsra", ayə 81).

Onun göstərişi ilə "Hubəl" illərlə ona pərəstiş edən müşriklərin gözlərinin önündə sındırılır. Təvafı sona çatdıran Peyğəmbər (s) bir az əyləşdikdən sonra Kəbənin qapılarının açılmasını əmr edir. O, Kəbəyə daxil olur. Kəbənin daxili peyğəmbərlərin təsvirləri ilə dolu idi. Onun göstərişi ilə Kəbənin divarları Zəm-zəm suyu ilə yuyulub təsvirlərdən təmizlənir.

Tarixçilər və mühəddislər qeyd edirlər ki, Kəbənin daxilində və xaricində olan bütlərin bir qismi Əlinin (ə) vasitəsilə yerlə yeksan edilmişdir. Belə ki, Peyğəmbər (s) Əlinin (ə) çiyinləri üstünə çıxıb bütləri dağıtmaq istəyəndə hiss etdi ki, Əli (ə) onun ağırlığına tab gətirmir. Göstəriş verir ki, Əli (ə) onun çiyinləri üstünə çıxıb bütləri dağıtsın (Mənbələr üçün bax: "Əl-ğədir", c.7, səh.10-13).

Peyğəmbər (s) ümumi əfv elan etdi. Zöhr namazının vaxtı çatdıqda isə İslamın rəsmi müəzzini Bilal Kəbənin damına çıxıb uca səslə azan verərək tovhid və risalətin nidası ilə qəlbləri riqqətə gətirdi.

Hər gün dünyanın bütün nöqtələrindən milyonlarla müsəlmanlar Allaha pərəstiş məqsədilə yer üzündə tikilən ilk evə - tovhid, ixlas, fədakarlıq, saflıq, əmin-amanlıq və azadlıq rəmzi olan əzəmətli Kəbəyə tərəf üz tutur, öz dua və munacatlarını bu müqəddəs nöqtədən mələkut aləminə ucaldırlar.

**Dəhvul ərz yer kürəsinin Kəbə evinin altından genişlənməsi günüdür və o gün Zilqədə ayının 25-nə təsadüf edir. Bu gün il ərzində olan ən fəzilətli günlərindən biridir. O günün orucu çox fəzilətli və məqbul sayılır. Rəvayətlərdə buyurulur ki, Dəhvul ərz gününün orucu yetmiş ilin orucuna bərabərdir. Başqa bir hədisdə isə o günün orucunun yetmiş ilin kəffarə orucuna bərabər olması vurğulanır. Hər kəs o günü oruc tutub, gecəsini ibadətlə keçirsə, onun üçün yüz ilin ibadəti yazılar və bu günü oruc tutan şəxs üçün göylər və yer arasında olan hər bir şey istiğfar edər. O gün elə bir gündür ki, Allahın rəhməti hər yeri bürüyür.**

# Niyə qızlar oğlanlardan daha tez həddi-bluğa çatırlar?

***Bu suala Həzrət Ayətullah Cəvadi Amuli çox gözəl cavab verir: Qadının tofiqi kişidən çoxdur. İnsan qadının kişiyə bərabər olduğunu ən azından etiraf etməlidir. Çünki kişinin həddi-buluğa çatmasına təqribən 6-il qalmış Allah-təala qadını öz hüzuruna qəbul edir. Qadın 9-yaşını tamamlayıb (hicri təqvimi ilə) 10-cu ilinə daxil olarkən Allah onunla danışmağa başlayır. Orucu ona vacib edir. Bu zamanda isə oğlan uşağı yeni-yetmə kimi hələ oynamaqla məşğuldur.***

***Altı il, bu müddət onun sanki hazırlanma prosesi gedir. Dinin sütunu olan namazı, qalxan olan orucu və Allah qonaqlığı və ziyafəti olan həcc səfərinin qadına kişidən daha tez vacib edilməsi onu göstərir ki, qadın fəzilətləri qəbul etməkdə kişidən daha layiqlidir. Əgər bu məntiq düzgün qeyd olunub, icra olunarsa nəticədə qadının kişidən üstün və ya ən azından ona bərabər olması məlum olacaq.***

**Namazın savabından bəhrələnmək.**

Baxmayaraq ki, qadın adət zamanı (aybaşı) bəzi ibadətlərdən məhrum olur amma onların hamısını düzəltmək mümkündür. Belə ki, adət zamanı bitdikdən sonra əgər orucunu tuta bilməmişdisə qəzasını yerinə yetirəcək, namazlar üçün isə həmin müddət ərzində dəstəmaz alıb öz müsəllasında (daim namaz qıldığı məkan) üzü qibləyə əyləşərək namaz miqdarında zikr deyib, namazın savabını alacaq. Necə ki, səfərə çıxmış şəxs namazlarını iki rəkət qılır, qılmadığı digər iki rəkətin savabını əldə etmək üçün 30 və ya 40 dəfə təsbihati-ərbəəni təkrarlayaraq o iki rəkəti bərpa etmiş olur.

Deməli bu cür fəzilətləri bərpa etmək mümkündür. Əsas məsələ budur ki, oğlan uşağı 15-yaşını (hicri-təqvimi ilə) tamamlayıb 16-yaşına girdikdə ilahi dərgaha xitab etmək ləyaqətini qazanmış olur. Bu zamandan öncə həmin ləyaqəti əldə etmiş olmur. Çünki həddi-bluğa çatmaq ubudiyyət (bəndəlik) məqamına təşrif gətirmək üçün zəminədir.

Böyük alimlərdən biri olan ibni Tavus (r) barəsində nəql edirlər ki, öz həddi-buluğa çatdığı günü bayram edib. O, 15-yaşını tamamlayıb, 16-yaşına addım atdıqda tanışlarını və dostlarını təşkil etdiyi bayrama çağırmışdı. O, bu yaşa çatıb Subhan Allahla danışmaq həddini əldə etdiyinə görə şükr əlaməti olaraq bu addımı atmışdı. Çünki insan həddi-buluğa çatmamış ilahi dərgahla danışmaq təklifindən məhrumdur. Yalnız bu həddə çatdıqda həmin ləyaqəti əldə etmiş olur.

İndi sual meydana çıxır ki, bu günü bayram etmək dini hökmlər baxımından düzgündürmü və ya sünnətdəndirmi yoxsa başqa bir məsələdir. Bunu yerinə yetirən şəxs bir nemətə şükr əlaməti olaraq əməl etmiş olur. Yəqin Seyyid ibni Tavus bu əməli ilə bildirmək istəyib ki, sizə verilən hər bir nemətə şükr edin və dəyərini tanıyın. Buna əsasən həddi-buluğun bir şərafət olduğu məlum olur. Seyri-sluk (irfan əhli) əhli deyirlər ki, biz müşərrəf (təşrif apardıq) olduq, nəinki mükəlləf (təklifə çatmaq). Çünki, bu işdə çətinlik və zəhmət yoxdur. Əksinə bu işdə şərafət var. Elə buna görə İmam Səccad (ə) münacati-zakirində (zikr əhlinin münacatı) buyurur: "Ey o Allah ki, sənin adın şərafət mənbəyidir..."

Əgər bir şəxs elə bir məqama yetişə ki, Allahı zikr edə və zikrin sayəsində Allahı yad eləyə və Allahda onu yad eləyə onda şərafətə nəsib olmuşdur. Və qadın kişidən 6-il öncə bu şərafətə çatır. Diqqət olunduqda görünür ki, kişi sirati mustəqimdə (düzgün yol) addım atıb irəliləməmişdən öncə qadın bu yolun böyük bir hissəsini keçmiş olur.

Beləliklə qadın həm adət olduğu müddət ərzində yerinə yetirə bilmədiyi əməllərin əvəzini ödəyə bilir və həmçinin kişidən 6-il öncə onun məhrum olduğu üstünlükləri əldə etmiş olur. Ömrün sonlarında da seyyidə olmayan qadınlar 50-yaşından sonra adət görmürlər. Adət gördükləri müddət ərzində də ilk öncə adətləri məhdud və bir neçə gündən artıq deyil. İkincisi qadın kişidən 6-il qabaq həddi-buluğa çatıb bu yolda addım atdığından bütün nöqsanları sığortalamış olur. Belə ki, əgər imanında hansısa bir nöqsan olsa və bununda səbəbi ibadətdəki nöqsanlar üzündən olsa onları düzəltməsi mümkün olmaqla yanaşı həmin altı illik ibadətləri qənimət bilərsə üstün bir əzəmət də əldə etmiş olur.

Bütün bu deyilənlərdən Həzrət Əlinin (ə) Nəhcül-bəlağədə (31-ci məktub) İmam Həsən Müctəbaya (ə) xitabən buyurub: "Qadın güldür, gərək onu kişidən daha tez tərbiyə edib, təklif qarşısında qoyasan. Əks təqdirdə solacaq." İslam dini ailə və mədrəsə başçılarına qızlara oğlanlardan daha artıq diqqət edilməsini və tərbiyəsi ilə məşğul olmaq göstərişini verir. Qızın oğlana nisbətdə 6-il qabaq təklifə çatması baş verirdə, nəticədə mədrəsə və ev başçılarının qızlara oğlanlardan daha artıq məsuliyyətləri artır. Bu təhlil nəticəsində qadının namaz, dua və münacata kişidən daha tez hazırlıq tapması məlum olur.

# MEYSƏM TƏMMAR



***Meysəm Yəhyanın oğlu idi. O Nəhrəvan məntəqəsindən idi. Meysəm əvvəlcə bəni-Əsəddən olan bir qadının qulamı idi. Həzrət Əli (ə) onu həmin qadından alıb, azad etdi. Meysəm Həzrət Peyğəmbərin səhabələrindən sayılır. Onun həyatının əvvəlləri və ilkin islamdakı bioqrafiyası haqqında yetərincə məlumat yoxdur. O, Kufədə xurma satdığı üçün ona "təmmar", yəni "xurmasatan" ləqəbi verilmişdi. Meysəmin özünün fədakar və pak müsəlman olması ilə yanaşı, onun ailəsi də İslam böyüklərindən sayılırdı. Onun altı oğlu vardı. Oğlanları və çoxsaylı nəvələri də öz atababaları kimi Əhli-beyt yoluna sədaqətli idilər. Onun oğlanlarından biri olan Şüeyb imam Sadiqin (ə), digər oğlu Saleh isə imam Baqirin (ə) və İmam Sadiqin (ə) səhabələrindən idi. İmam Baqir Salehə belə buyurmuşdur: "Mən sizi və sizin atalarınızı çox sevirəm." İmran isə həm imam Səccadın (ə), həm imam Baqirin (ə), həm də İmam Sadiqin (ə) səhabələrindən olmuşdur. Bütün bu deyilənlər Meysəm ailəsinin imamların yanında hörmət və ehtiramından danışır. Meysəmin və onun ailəsinin imamlara (ə) bağlılığı, məhəbbəti və itaəti göz qabağındadır***.

Həzrət Əli (ə) Meysəm haqqında əsasən Həzrət Peyğəmbərdən (s) eşitmişdi. Meysəm də elə əvvəldən Əhli-beyt (ə) aşiqi idi. Amma Həzrət Əlinin (ə) Meysəmlə ilkin görüşü onun xilafəti dövründə baş vermişdir. Elə həmin görüşdən sonra da Həzrət (ə) Meysəmi azad etmək qərarına gəlmişdir. Nəhayət, Həzrətin (ə) qərarı ilə Meysəm qulamlıqdan azad olunmuşdur.

Həzrət Əli (ə) Meysəmlə ilk görüşündə ondan soruşur: "Adın nədir? Meysəm cavab verir: "Salim." Həzrət buyurur: "Peyğəmbərdən (s) eşitmişəm ki, atan sənin adını Meysəm qoymuşdur. Həmin adına qayıt və Kunyən Əbu Salim olsun." Meysəm dedi: "Allah, onun Rəsulu və Əmirəl-möminin haqqı deyirlər."

Meysəm Həzrət Əlidən (ə) Quran təfsirini öyrəndi. O Əmirəl-möminindən (ə) öyrəndiyi məlumatlar əsasında bir kitab tərtib etdi. Bu kitabı sonradan oğlu nəql etmişdir. Ona görə də Meysəm əhli-beyt müəlliflərindən biri hesab olunur. Həzrət (ə) onu öz sirləri, gələcəkdə baş verəcək hadisələrlə tanış etmişdi. Meysəm bu məlumatlardan bir qismini xalqa bildirmişdi. İnsanların aqibətindən, gələcəkdə baş verəcək hadisələrdən danışan bu elm "elme-əcəl" və ya "elme-mənaya və bəlaya" adlanır. Məsum imamlar (ə) bu bilikləri yalnız hazırlığı, istedadı, tutumu olan, sirr saxlamağı bacaran insanlara etibar etmişlər. Meysəmin bilikləri o qədər fövqəladə olmuşdur ki, hətta bəzi nadanlar onu yalançı da hesab etmişlər.

Bir gün Əbu-Bəsir İmam Sadiqə (ə) ərz edir: "Nə üçün mənə elm öyrətmək istəmirsiniz?!" İmam (ə) buyurur: "Hansı elmi?" Əbu-Bəsir deyir: "Əmirəl-möminin (ə) Meysəmə öyrətdiyi elmi deyirəm." İmam buyurur: " Sən ki, Meysəm deyilsən. Məndən eşitdiyin bir mətləbi kimsəyə demədiyin hal olubmu?" Əbu-Bəsir ərz etdi: "Xeyr, ey Peyğəmbər (s) övladı!" İmam buyurdu: "Demək, həmin elmləri sirr olaraq saxlaya bilməzsən!"

Meysəmin aydın nitqi vardı. O, səlis və bəlağətli danışırdı. Baş vermiş bir əhvalat Meysəmin bu xüsusiyyətini çox aydın göstərir. Bazarda Meysəm meyvə satanların böyüyü hesab olunurdu. Mühüm məqamlarda danışmaq lazım gəldikdə Meysəm Təmmar qabağa düşərdi. Bir gün bazar əhlindən bir qismi Meysəmin yanına gəlib, bazar müdirindən şikayət üçün onu İbn Ziyadın görüşünə göndərmək istədi. Meysəm İbn Ziyadın yanına gedib, bazar əhlinin şikayətini ona çox gözəl bir şəkildə bəyan etdi. Meysəm özü həmin görüşü belə xatırlayırdı: "İbn Ziyad sözlərimi eşidib, heyrətə düşdü və dərin fikrə getdi." Amma Meysəmin bu şikayətindən sonra İbn Ziyadın qəlbində ona qarşı kin baş qaldırdı. Meysəmin həqiqəti belə gözəl bəyan etməsi onda həsəd yaratdı.

Meysəm Təmmar İmam Əlinin (ə) təfsir məktəbinin yüksək məqamlı şagirdlərindən biridir. Meysəm Quran ayələrinin mənalarını Həzrət Əlidən (ə) öyrənmiş və bu sahədə xüsusi agahlığa malik olmuşdur.

Bir gün Meysəm Quran təfsirçisi və Həzrət Əlinin (ə) şagirdi İbn Əbbasla Mədinədə görüşdü və ona dedi: "Quran təfsirindən istədiyin şeyi soruş! Mən Əlidən (ə) bütün Quranı öyrəndim, o mənə Quranın mənalarını açıqladı." Meysəmin fəzilətindən, elmindən və təqvasından xəbərdar olan Əbbas Meysəmin deyəcəyi sözləri qeyd etmək üçün kağız-qələm istədi. Meysəm təfsirdən qabaq dedi: "Ey

İbn Əbbas, məni dar ağacında görəndə necə olacaqsan? Darının dirəyi başqalarından kiçik olan doqquzuncu nəfəri deyirəm..” İbn Əbbas dedi: “Gələcəyi də bilirsən?!” Sonra İbn Əbbas əlindəki kağızı cırıb atmaq istədi. O, gələcəyin elmləri haqqında bir şey bilmirdi. Meysəmin öz şəhadəti haqqında xəbər verməsi onun düşüncəsinə sığmırdı. Meysəm dedi: “Bir az aram! Məndən eşitdiyini yaz və saxla! Əgər dediklərim düz olsa, kağızı saxla, yox əgər yalan olsa, onda cırıb atarsan...” İbn Əbbas onun sözünü qəbul etdi.

Xüsusi istedad və məqama malik olan Meysəm Həzrət Əlidən (ə) xeyli hədis eşitmişdi. Onun oğlunun deməyinə görə, bu hədislərdən bir kitab da tərtib olunmuşdu. Təəssüf ki, Meysəmin yazılarından bu günümüzə gəlib çatanı olmamışdır. Ravilər də həmin yazıların dəyərini və əhəmiyyətini dərk etmədiklərindən bu barədə nəql etməmişdilər. Hədis kitablarında Meysəmdən nəql olunmuş rəvayətlər isə çox azdır. Oğlanları Yəqub və Saleh Meysəmin yazılarından rəvayətlər söyləmişlər.

* * *

Meysəm din yolunun cəfakeşlərindən, vilayət və ədalət yolunun fədakarlarından biri idi. O, Əlinin (ə) vücudunda və vilayət xəttində təcəssüm etmiş fəzilətlərin himayəsi üçün canından keçdi. Şəhadət Meysəm üçün qırmızı bir milad idi. O öz qanı ilə əbədilik tapmış bir yarpaqdır. Onun həyat kitabı ölümündən sonra əbədilik tapdı. İndi Meysəmin kamal və üstünlüyünün sübutu olan qanlı vərəqlərə nəzər salaq.

Meysəm Kufədə xüsusi hörmət sahibi idi. Onun güclü ictimai mövqeyi vardı. Ona görə də o, həccdən qayıdıb Kufəyə çatmamış İbn Ziyad onun həbsinə göstəriş verdi. Bu həmin vaxt idi ki, Müslüm ibn Əqil Kufədə şəhadətə yetirilmiş, Kufəni həyəcan bürümüş, tanınmış simalar təqibə məruz qalmışdılar. Etiraz və qiyam üçün münasib şərait yaranmışdı.

Meysəm həmin vaxt haldan düşmüş qoca bir kişi olsa da, onun iman gücü, möhkəm iradəsi və iti danışığı İbn Ziyadı qorxuya salmışdı. Ona görə də bu adamın həbs olunması üçün yüz qüvvəli məmur göndərmişdi.

Məmurlar Meysəmi Kufəyə gətirdilər. Meysəmin tutulması xəbəri İbn Ziyada çatdırıldı. İbn Ziyada Meysəmi belə tanıtdırmışdılar ki, o Əbu-Turabın (Əlinin) ən yaxın adamlarındandır. İbn Ziyadın göstərişi ilə Meysəmi onun hüzuruna gətirdilər. İbn Ziyad Meysəmin əhval-ruhiyyəsini yoxlamaq üçün ona dedi: “Allahın haradadır?” Meysəm: “Allahım zalımların yolunu gözləyir və bu zalımlardan biri sənsən.” İbn Ziyad dedi: “Əcəm olmağına baxmayaraq, mənimlə bu cür danışırsan?! Mənə deyiblər ki, sən Əli ilə çox yaxınsan.” Meysəm cavab verdi: “Bəli, düz deyiblər.” İbn Ziyad dedi: “Əgər Əlini lənətləməsən əllərin və ayaqların kəsiləcək, dara çəkiləcəksən.” Meysəm İbn Ziyadın hədələrinə belə cavab verdi: “Əli dara çəkiləcəyimi mənə xəbər verib.” İbn Ziyad bu xoşagəlməz vəziyyətdən çıxmaq üçün dedi: “Vay olsun sənə! Əlinin dediyinin tərsinə hərəkət edəcəyəm!” Meysəm dedi: “Axı necə?” Axı bu xəbəri Əli (ə) Peyğəmbərdən (s), Peyğəmbər (s) Cəbraildən, Cəbrail isə Allahdan eşitmişdir. And olsun Allaha! Hətta dara çəkiləcəyim yeri də bilirəm. Mən ilk müsəlmanam ki, İslam yolunda ağzıma cilov taxılacaq.” İbn Ziyad Meysəmin sözlərindən heyrətə gəldi və dedi: “And olsun Allaha! Əl-ayağını kəsib, dilini boş buraxacağam ki, həm mövlanın, həm də sənin yalanların aşkar olsun.” Sonra İbn Ziyad göstəriş verdi ki, Meysəmin əl-ayağını kəssinlər və dara çəksinlər.

Meysəm öz ölümünü o qədər adi və etinasız qarşıladı ki, düşmənin qəzəbi daha da artdı. O hətta ölüm astanasında uca bir səslə xalqa İslami həqiqətlərdən və Həzrət Əlinin (ə) əsrarəngiz hədislərindən danışırdı. O vaxtlar insanı boğazından yox, çiyinlərindən, sinəsindən dara çəkər və boğmaqla yox, sıxıntı və aclıqla öldürərdilər. Meysəm deyirdi: “Hər kəs Həzrət Əlinin (ə) dəyərli bir hədisini eşitmək istəyirsə, mən ölməmiş yaxına gəlsin. Mən sizə dünyanın sonunadək gələcəyin hadisələrini xəbər verərəm. Xalq onun ətrafına toplanmışdı. Meysəm din mənbərindən danışırdı. O Peyğəmbər (s) Əhli-beytinin, Əli (ə) ailəsinin fəzilətlərindən danışır. Bəni-Üməyyənin xəyanətlərini ifşa edirdi. Həmin bu son anlarda Meysəmin dar ağacından həqiqətləri bəyan etməsi olduqca təsirli idi. İbn Ziyada xəbər verdilər ki, bu adam sizi rüsvay etdi. İbn Ziyad dedi: “Ağzına cilov taxın.” Bəli, Meysəm İslam yolunda ağzına cilov taxılmış ilk şəxs oldu.

Daha sonra onun qılıncdan iti dilini kəsdilər. Onun dilini kəsmək tapşırığı almış məmur Meysəmə dedi: “Nə istəyirsənsə, de, əmir sənin dilinin kəsilməsini əmr etmişdir.” Meysəm dedi: “Günahkar qadının oğlu Übeydullah İbn Ziyad elə düşünür ki, məni və mövlamı yalançı kimi tanıtdıra bilər. Budur mənim dilim.” Həmin muzdur Meysəmin dilini ağzından çıxardı...

Meysəm elə bu halda da dar ağacında qaldı. Səhəri gün onun burnundan və ağzından qan gəldi. Beləcə, öz dediyi kimi, onun ağ saqqalı qırmızı qanına boyandı.

Şəhadətindən sonra Meysəmin pak vücudu bir müddət dar ağacında qaldı. İbn Ziyad onu daha çox təhqir etmək üçün torpağa tapşırılmasını yubadırdı. Eləcə də, bu səhnə vasitəsi ilə xalqın gözünü qorxutmağa çalışırdı. O hamıya anlatmaq istəyirdi ki, Əli (ə) müdafiəçilərini hansı aqibət gözləyir. Amma İbn Ziyad unudurdu ki, şəhidlər öz ölümlərindən sonra da insanlara doğru yol göstərir, onları ilhamlandırır və ümid verirlər. Onlar hər zaman zalım hakimlər üçün qorxu mənbəyidir.

# Ömər Xəyyam



***O, axşam namazını başa çatdırandan sonra səcdəyə gedərək deyib: ”Ay Allah, Sən bilirsən ki, mən Səni imkanım daxilində dərk etmişəm. Məni bağışla, mənim idrakım Sənin qarşında xidmətimdir”. Bununla da Allahın rəhmətinə qovuşub.***

Çoxları onu bütün dünyada məşhur rübailərin müəllifi kimi tanıyır. 20-ci əsrin əvvəllərində Böyük Britaniyada tikilmiş ən böyük sərnişin gəmisi olan “Titanik” aysberqə çırpılıb batan zaman göyərtəsində 13 milyon sterlinq məbləğində sərvətlə yanaşı, Ömər Xəyyamın qədim əlyazması — “Rubayyat”ın olması da məlumdur. Bu, xristian aləmində də Ömər Xəyyam yaradıcılığına böyük marağın sübutudur. Amma Ömər Xəyyam astronomiya, coğrafiya, fəlsəfə sahəsində də böyük alim kimi məşhurdur. Cəbr problemlərinin həlli haqqında traktat Ömər Xəyyamı böyük alim kimi şöhrətləndirmişdir. “Evklidin çətin müddəalarının şərhi haqqında traktat”ı isə ona dünya şöhrəti gətirmişdir.

Xəyyam riyaziyyata dair əsərlərində bütün əsas tənliklərin – xətti, kvadrat, kub tənliklərinin (cəmi 25 növ) müfəssəl təsnifatını vermiş, kub tənliklərinin həlli nəzəriyyəsini işləyib hazırlamışdır. Həndəsənin cəbr ilə əlaqələri haqqında məsələnin ilk dəfə qoyuluşu da məhz Xəyyamın xidmətidir. O, cəbr tənliklərinin həndəsi həlli nəzəriyyəsini əsaslandırmışdır. Ömərin “Hesab çətinlikləri” adlı daha bir riyazi əsəri tam ədədlərdən istənilən dərəcəli kök alınması metoduna həsr olunmuşdur. Bu metodun əsasını təşkil edən formula sonralar Nyuton binomu adı almışdır.

Xəyyam musiqinin riyazi nəzəriyyəsini də işləyib hazırlamışdır. O, paralel xətlər nəzəriyyəsinə dair bir sıra maraqlı mülahizələr söyləmişdir. Bu fikirlər həndəsənin sonrakı inkişafına müsbət təsir göstərmişdir.

Ömər Xəyyam 18 may 1048-ci ildə İranın şərqindəki Xorasan vilayətinin Nişapur şəhərində sənətkar ailəsində doğulmuşdur. Onun sənətkar ailəsində dünyaya gəlməsini soyadı da sübuta yetirir. Xəyyam “çadır ustası” mənasını verir.

Xəyyam əvvəlcə dövlət qulluğunda çalışmaq üçün məmurlar hazırlayan Nişapur mədrəsəsində oxumuş, sonralar təhsilini Bəlx və Səmərqənddə davam etdirmişdir. O, riyaziyyat, həndəsə, fizika, astronomiya kimi dəqiq elmlərə yiyələnmiş, fəlsəfəni, sufiliyi, quranşünaslığı, tarixi, hüquqşünaslığı dərindən öyrənmişdir. Ərəb dilinə və ədəbiyyatına mükəmməl yiyələnmişdir.. Ömər Xəyyam astrologiyanın, musiqi nəzəriyyəsinin mahir bilicisi olmuşdur. O, Qurani-Kərimi əzbər bilməklə yanaşı, onun bütün ayələrinin dəqiq təfsirini də verə bilmişdir. Ona görə də hətta Şərqin ən bilikli ilahiyyatçıları Xəyyamdan məsləhət almağı özlərinə əksiklik saymamışlar.

Ömər Xəyyamın elmi məşğuliyyətinin başlıca istiqaməti riyaziyyat olmuşdur. İyirmi beş yaşında ilk elmi kəşflərini etmişdir. “Cəbr problemlərinin isbatları haqqında traktatı” Xəyyamı böyük alim kimi tanıtmışdır. Buxarada Qaraxani şahzadəsi Xaqan Şəms əl-Mülkün sarayında elmi fəaliyyətə başlayan

Xəyyam Buxara hakiminin böyük hörmətini qazanmışdı. Buxara hakimi Xəyyamı taxtında özü ilə yanaşı oturdurdu. 1074-cü ildə qüdrətli sultan Malik şahın sarayına dəvət olunan Xəyyam İsfahana gedərək düz iyirmi il elmi fəaliyyətində böyük uğurlar qazanmışdı.

Xəyyam Nizam əl-Mülkün təkidi ilə saray rəsədxanasının rəisi təyin olunmuşdu. Xəyyama yeni təqvim hazırlamaq tapşırılmışdı. Təqvim hazırlanandan sonra onun praktik tətbiqi mümkün olmamışdı. Ömər Xəyyam rəsədxanada astronomik müşahidələr də aparırdı. O, səma cisimlərinin hərəkətini uzun illər boyu müşahidə etməsi nəticəsində “Məlik şahın astronomik cədvəlləri” ni tərtib etmişdi. Həmin cədvəllər orta əsrdə Şərqdə geniş yayılmışdı.

İsfahandakı elmi fəaliyyəti dövründə Ömər Xəyyam fəlsəfə problemləri ilə də məşğul olurdu. O, İbn-Sinanın böyük elmi irsini diqqətlə öyrənirdi, bir neçə əsərini ərəb dilindən fars dilinə çevirmişdi. Ömər Xəyyam ilk fəlsəfi əsərini — “Varlıq və zərurilik haqqında traktat”ı 1080-ci ildə yazmışdı. Xəyyamın elmi-fəlsəfi irsi böyük deyildir. Onun traktatları fəlsəfənin ayrı-ayrı vacib məsələlərinə toxunur. Xəyyam yazılarında yığcamlığı üstün tutub, az sözlə tutarlı fikirlər söyləməyi lazım bilib. Ona görə də əsərlərinin hamısı lakonik, bəzən bir neçə səhifədən ibarət olub.

Xəyyam evlənməyib, qapalı həyat tərzi keçirib. Onu anlaya bilməyən, yaxud anlamaq istəməyən ruhanilərin daimi təqiblərindən həmişə qorxu içində yaşayıb. Onun ölüm tarixi təqribən 1123-cü ilə düşür. Yazılanlara görə, o, həyatının son saatlarında İbn Sinanın “Şəfa kitabı”nı diqqətlə oxuyurmuş. “Tək və cəm” bölməsinə çatanda səhifələr arasına əlfəcin qoyub və yanındakılara vəsiyyət etməkdən ötrü lazımi adamları çağırmaq tapşırığı verib. Bütün günü heç nə yeməyib, heç su da içməyib. Axşam namazını başa çatdırandan sonra səcdəyə gedərək deyib: ”Ay Allah, Sən bilirsən ki, mən Səni imkanım daxilində dərk etmişəm. Məni bağışla, mənim idrakım Sənin qarşında xidmətimdir". Bununla da canını tapşırıb.

Ömər Xəyyam yaxınlarına deyirmiş ki, “Qəbrim elə yerdə olacaq ki, yaz fəslində əsən meh onu çiçəklərə qərq edəcək”. Doğrudan da, belə olub. Qonşu bağın armud və qaysı ağaclarının qəbiristanlıq hasarından sallanan güllü-çiçəkli budaqları böyük mütəfəkkirin qəbrinə çətir tuturmuş.





# Kriptoqram

1) İslamı ifadə edən rəng — 11 | 2 | 3 | 12 | 4

2) Dinin sütunu — 6 | 2 | 10 | 2 | 5

3) Zikr — 9 | 15 | 13 | 18 | 1 | 6 | 1 | 4 | 4 | 2 | 18

4) Məad — 16 | 4 | 19 | 10

5) Hər kəlməsində Allahın adı zikr olunan surə — 10 | 15 | 25 | 2 | 20 | 22 | 4 | 1

6) İslamdan əvvəl Mədinənin adı — 11 | 1 | 9 | 17 | 22 | 13

7) Quranda surə — 21 | 22 | 4

8) Cənnət xanımlarının xanımı — 21 | 2 | 7 | 22 | 10 | 1

9) Allahın sifətlərindən biri — 23 | 1 | 17 | 22 | 10

10) Düşmən evində böyüyən Peyğəmbər — 10 | 15 | 9 | 2

11) Allah Quranda and içir: — 14 | 19 | 6 | 1 | 3 | 1

12) Həftənin günü — 26 | 1 | 17 | 3 | 1 | 6 | 13 | 1

13) Ramazanda vacib olan — 8 | 17 | 15 | 25

14) Günah — 9 | 2 | 27 | 2 | 13




**Biz PEYĞƏM-BƏRİMİZİ SEVİRİK VƏ ONUNLA FƏXR EDİRİK**

25 | 2 | 6 | 4 | 2 | 17 — 9 | 1 | 6 | 1 — 21 | 1 | 20 | 2

11 | 2 — 17 | 1 | 9 | 15 | 4 | 1 | 4 | 4 | 2 | 18

24 | 11 — 10 | 19 | 9 | 2 | 4 | 10 | 2 | 6

9 | 24 | 27 — 10 | 1 | 18 | 1 | 10 | 10 | 1 | 20 | 22

9 | 24 | 27 | 20 | 22 | 17 — 10 | 1 | 18 | 1 | 10 | 10 | 1 | 20 | 22

9 | 24 | 27 | 22 | 6 | 20 | 22 | 17 — 10 | 1 | 18 | 1 | 10 | 10 | 1 | 20 | 22

# Ya Rəsulallah (s), səni “sevirik” deməklə, sevməkmi olar?

**Əziz İslam Peyğəmbəri (s) haqqında İslam düşmənlərinin sifarişi ilə “film” yayımlandıqdan sonra, öz-özümə belə bir sual verdim. Niyə bu, baş verdi? İslam müqəddəsatına qarşı bu kimi şeylər niyə baş verir?**

*Bir az düşündükdən sonra belə bir yekdil qərara gəldim ki, məhz İslam müqəddəsatına qarşı olan bu çirkin işlərin baş tutmasında bizlərin, yəni müsəlmanların da suçu var. Deyərdim ki, rəzil film və onun ardınca Fransada çıxan karikatura olayı baş verənlərin üzdə olan tərəfidir. Sən, mən, biz - həqarətin baş verməsinə qədər, ümumiyyətlə bu kimi işlərin baş verməməsi üçün nə etmişik? Başımız özümüzə, ailəmizə qarışıb. Türklər demişkən “Kendi dünyamızı yaşıyoruz”. Düşmən əlbəttə boş oturmur, səni və məni çox gözəl kənardan izləyir. Durumumuzu çox gözəl görür.*

*Bu kimi şeylərin baş verməməsi üçün özümüz ilk növbədə müqəddəsatımıza hörmətlə yanaşmalıyıq. Gəlin bir özümüzə sual verək: Sonuncu dəfə oturub, Rəsulullah (s) haqqında nə zaman bir məqalə oxumuşuq, sonuncu dəfə kiminlə bu mövzuda müzakirə aparmışıq? Sonuncu dəfə Peyğəmbər (s) və onun övladlarını nə zaman ziyarət etmişik? Məncə, elə bu suallarla baş verənlərin səbəblərini tapa bilərik.*

*Ya Rəsulallah, səni sevirik deməklə sevməkmi olar? Gərək insan sevdiklərinə sahib çıxsın. Sevdiklərimizə sahib çıxmadıqca isə başımıza bundan da pis hadisələr gələcək...*

*O ki, qaldı film və karikatura olaylarına, onu deyim ki, bunlara görə Rəsulullah (s) narahat deyil. Çünki bu kimi şeylər onun üçün adidir artıq. O Həzrət (s) hələ sağlığında bu kimi şeylərlə, amma ayrı tərzdə qarşılaşardı. Başına kül tökər, onu daşlayardılar...*

*İndi baş verənləri törədənlər elə Peyğəmbərin (s) zamanında olan nütfəsi xarab insanların ardıcıllarıdır ki, onlar hər zaman olub və olacaq.*

*Biz özümüz üzərimizdə işləməli və düşünməliyik. Mən Rəsulullahı (s) necə sevirəm? Bu sevgi nə qədərdir? Yalnız sıxıntıda olan zamanmı Rəsulullah (s) yadımıza düşür və yalvara-yalvara təvəssül edib, dua edirik? Təəssüflər olsun ki, əksər vaxt belə olur.*

*Bir neçə il bundan əvvəl hansısa İslam mütəfəkkirinin belə bir fikrini eşitmişdim. “İnsan bəzən Allahı unudur. Allahı yaddan çıxarır. Məhz bu səbəbdəndir ki, insanın Allahı unutması nəticəsində başına müxtəlif müsibətlər gəlir. İnsan Allahı unutduğundan günah işi icra edir”.*

*İndi biz əksər vaxt Peyğəmbərimizi (s) unuduruq. Həm fərdi, həm də ictimai davranışımızda, o cümlədən də işimizdə... Məhz unutqanlığımızdandır ki, bir gün biriləri bizim yadımıza Peyğəmbəri (s) salır. Amma bu, çox vaxt müsbətlə deyil, mənfi şeylərlə baş verir. Təhqirlər kimi...*

*Bu gün dünyanın müxtəlif yerində müsəlmanlar küçələrə axışıb, təhqirlərə qarşı etirazlar edirlər. Bir müddət sonra bu etirazlar yatacaq... Amma bir şey dəyişəcəkmi? Müsəlmanlar özünə gəlib, Peyğəmbərinə (s) vaxtında sahib çıxmağı öyrənəcəkmi? /Deyerler/*

# İMAN

## AZAN VAXTLARI

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 5:35 | 6:57 | 12:51 | 18:43 | 19:00 | 00:18 |
| 02 | 5:36 | 6:58 | 12:50 | 18:42 | 18:59 | 00:18 |
| 03 | 5:37 | 6:59 | 12:50 | 18:40 | 18:57 | 00:18 |
| 04 | 5:39 | 7:00 | 12:50 | 18:38 | 18:55 | 00:17 |
| 05 | 5:40 | 7:01 | 12:49 | 18:37 | 18:54 | 00:17 |
| 06 | 5:41 | 7:02 | 12:49 | 18:35 | 18:52 | 00:17 |
| 07 | 5:42 | 7:03 | 12:49 | 18:33 | 18:50 | 00:17 |
| 08 | 5:43 | 7:05 | 12:48 | 18:32 | 18:49 | 00:16 |
| 09 | 5:44 | 7:06 | 12:48 | 18:30 | 18:47 | 00:16 |
| 10 | 5:45 | 7:07 | 12:48 | 18:28 | 18:45 | 00:16 |
| 11 | 5:46 | 7:08 | 12:48 | 18:27 | 18:44 | 00:15 |
| 12 | 5:47 | 7:09 | 12:47 | 18:25 | 18:42 | 00:15 |
| 13 | 5:48 | 7:10 | 12:47 | 18:23 | 18:41 | 00:15 |
| 14 | 5:49 | 7:11 | 12:47 | 18:22 | 18:39 | 00:15 |
| 15 | 5:50 | 7:12 | 12:47 | 18:20 | 18:37 | 00:14 |
| 16 | 5:52 | 7:13 | 12:46 | 18:19 | 18:36 | 00:14 |
| 17 | 5:53 | 7:15 | 12:46 | 18:17 | 18:34 | 00:14 |
| 18 | 5:54 | 7:16 | 12:46 | 18:16 | 18:33 | 00:14 |
| 19 | 5:55 | 7:17 | 12:46 | 18:14 | 18:31 | 00:14 |
| 20 | 5:56 | 7:18 | 12:46 | 18:12 | 18:30 | 00:13 |
| 21 | 5:57 | 7:19 | 12:45 | 18:11 | 18:28 | 00:13 |
| 22 | 5:58 | 7:20 | 12:45 | 18:10 | 18:27 | 00:13 |
| 23 | 5:59 | 7:21 | 12:45 | 18:08 | 18:25 | 00:13 |
| 24 | 6:00 | 7:23 | 12:45 | 18:07 | 18:24 | 00:13 |
| 25 | 6:01 | 7:24 | 12:45 | 18:05 | 18:23 | 00:13 |
| 26 | 6:02 | 7:25 | 12:45 | 18:04 | 18:21 | 00:12 |
| 27 | 6:03 | 7:26 | 12:45 | 18:02 | 18:20 | 00:12 |
| 28 | 6:04 | 7:27 | 12:45 | 18:01 | 18:19 | 00:12 |
| 29 | 6:06 | 7:29 | 12:44 | 18:00 | 18:17 | 00:12 |
| 30 | 6:07 | 7:30 | 12:44 | 17:58 | 18:16 | 00:12 |
| 31 | 6:08 | 7:31 | 12:44 | 17:57 | 18:15 | 00:12 |



www.iman.ge www.imanmedia.ge

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Tel: (822) 23 39 87*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*